Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5 MART 2020-ci il

№ 40 (4171)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# PAŞİNYANIN 5 APREL BUKLETLƏRİNDƏ 7 RAYONUMUZ VƏ QARABAĞ RƏSMƏN ERMƏNİSTANA «QATILDI»...

■ səh. 7 ■

**Prezident potensial virus daşıyıcısı ola biləcək əcnəbilərə nəzarətin yeni üsulunu tətbiq etdi - İrandan tranzit yük daşıyan sürücülər...**

■ səh. 3 ■

**Kremlin İrəvana yeni Qarabağ təzyiqləri başlanır - gündəmdə hərbi məzmunlu mübahisələr var**

■ səh. 9 ■

**Operativ qərargah İrandan təxliyyə edilən Azərbaycan vətəndaşlarının sayını açıqladı**

■ səh. 2 ■

**Gürcüstan da Ermənistanın iqtisadi təcridinə qoşulur**

■ səh. 12 ■

**Yaxın günlərdə dollar-manat nisbətində maraqlı dəyişikliklər ola bilər**

■ səh. 13 ■

**Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi**

■ səh. 11 ■



■ səh. 8 ■

## Koronavirus yayılan hər ölkənin başçısı Azərbaycan Prezidenti kimi bölgələrə səfərlər etmir...



**Bazarda antivirus maskalarını bahalaşdıran kimlərdir? - Prezidentin əsaslı tələbi maraqlı araşdırmalara start verdi...**

■ səh. 3 ■

**Azərbaycanda virusla bağlı vəziyyətin tam nəzarətdə olduğunu göstərən əsaslar...**

■ səh. 6 ■



**Vilayət Eyvazova yazılmış məktubda bir cümlə ATƏT komissarının bütünlüklə media azadlığına baxışlarını ifşa etdi - aksiyanı işıqlandıran jurnalistlər...**

■ səh. 5 ■

■ səh. 5 ■

**Ermənistan Qarabağ tənzimlənməsində Türkiyənin fəallaşmasından qorxuya düşdüyünü rəsmi bəyan etdi...**



■ səh. 7 ■

**Ermənistan üçün xofdan törəyən hərbi qərar - Azərbaycanın təlimlərindən sonra ordu hazır vəziyyətə gətirildi...**



■ səh. 10 ■

**Ermənistanın anti-Rusiya siyasətinin yeni dalğasına cavab gəldi - Rusiyada Qarabağ separatçılarına yeni baxış...**



■ səh. 10 ■

**Paşinyanın Ermənistanı Gürcüstanla eyni təhlükəsizlik müstəvisində göstərmək cəhdinin əsassızlığı - ərazi bütövlüyü tanınmır, erməni separatizmi gizli dəstəklənir...**



■ səh. 14 ■

**Son 15 ildə Azərbaycan səhiyyəsində görülən işlər koronavirus kimi təhlükənin qarşısını kəsməyə necə imkan verəcək...**



# Prezident İlham Əliyev Ağstafa və Tovuzda bir sıra mühüm infrastruktur obyektlərin açılışında iştirak etdi

**Prezident İlham Əliyev martın 4-də Ağstafa rayonuna səfər edib, Ağstafa şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.**

Prezident "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olub, Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında da iştirak edib və yolun rəmzi açılışını bildirən lenti kəsib.

Ağstafa rayonuna səfəri çərçivəsində Prezident Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında da iştirak edib.

Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Prezident İlham Əliyevə raport verib.

Dövlət başçısı hərbi hissədə yaradılan şəraitlə tanış olub. Martın 4-də 110/35/10 kilovoltluq "Ağstafa" elektrik yarımstansiyası yenidənqurmadan sonra istismara verilib. Prezident İlham Əliyev açılışda iştirak edib. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına yarımstansiya haqqında məlumat verib. Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

Prezident Ağstafa Aqrar Sənaye Kompleksinin də açılışında iştirak edib. Kompleksin Müşahidə Şurasının sədri Rəsul Orucov dövlət başçısına müəssisədə yaradılan şərait barədə məlumat verib.

Prezident İlham Əliyev kompleksə tanış olub, müəssisənin kollektivi ilə görüşüb.

Prezident Müdafiə Nazirliyinin Ağstafada yerləşən "N" saylı hərbi hissəsinin açılışında da iştirak edib.

Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə raport verib.

Prezident İlham Əliyev martın 4-də Tovuz rayonuna da səfər edib.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov rayonda görülən işlər barədə dövlət başçısına məlumat verib.

Prezidenti "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz filialının fəaliyyəti ilə tanış olub, Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin, Tarix-Diyarşünaslıq Muzeyinin,




Dövlət Rəmzləri Muzeyinin, "ASAN Həyat" kompleksinin açılışlarında iştirak edib. ASAN könüllüləri ilə görüşüb, görüşdə çıxış edib və xatirə şəkli çəkdirib.

Prezident İlham Əliyev martın 4-də Tovuzda Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində də iştirak edib, yolun rəmzi açılışını bildirən lenti kəsib.

***Baki-xeber.com***

## Azərbaycanın Rusiyadakı səfiri RF Baş prokuroruna məktub ünvanlayıb

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu 1990-cı ilin 20 yanvar hadisələrinin açıq təhrif olunması ilə bağlı Rusiya Baş prokuroruna müraciət edib. "Trend" bu barədə Azərbaycanın Rusiyadakı səfirliyinin mətbuat xidmətinə istinadən məlumat verir.**



Məlumatda qeyd olunur ki, "Tsarqrad TV" informasiya-analitik telekanalının saytında bu ilin fevralın 26-da nəşr olunan, Vladimir Xomyakovun müəllifi olduğu "Ruslar, getməyin, bizə qullar və fahişələr lazımdır" adlı məqalədə 1990-cı ilin 20 yanvar hadisələrinin açıq təhrif olunması ilə bağlı Rusiyanın Baş prokuroru İqor Krasnova və Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi Kommunikasiya Federal Xidmətinin rəhbəri Aleksandr Jarova səfirin imzası ilə məktublar göndərib.

Müraciətdə Azərbaycan tərəfinin qəti etirazı ifadə edilib və dövlətimizin bu məsələ ilə bağlı mövqeyi çatdırılıb: "Qanlı Yanvar" hadisələri ilə bağlı məsələnin Azərbaycan xalqı üçün çox həssas olduğu və bu faciəvi hadisələrə Azərbaycan Respublikası Milli Məclisinin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi və hüquqi qiymət verildiyi, 20 Yanvarın "Ümumxalq hüzn günü" elan olunduğu bildirilib. Müraciətdə yüksək səviyyəli dövlət səfərləri zamanı xarici qonaqların, o cümlədən Rusiya Federasiyasının Prezidenti, xarici işlər naziri, eləcə də digər Rusiya rəsmilərinin "Şəhidlər Xiyabanı" memorial kompleksini ziyarət etdikləri və abidə önünə əklil qoyaraq şəhidlərin xatirəsini ehtiramla yad etdikləri vurğulanıb. Bu cür məqalələr Azərbaycan və Rusiya xalqları arasında düşmənçilik və nifrət səpmək məqsədi daşıyır".

Səfirlikdən bildiriblər ki, yuxarıda göstərilənləri nəzərə alaraq, səfir Rusiya Cinayət Məcəlləsinin 282-ci maddəsinin və 27 iyul 2006-cı il tarixli "İnformasiya, informasiya texnologiyaları və məlumatların qorunması haqqında" Federal Qanunun 10.6-cı maddəsinin tələblərinin pozulduğuna görə müvafiq yoxlamanın aparılmasını xahiş edib.

# Operativ qərargah İrandan təxliyyə edilən Azərbaycan vətəndaşlarının sayını açıqladı

*İran gəmilərinin Azərbaycan limanlarına girişinə müvəqqəti məhdudiyyət qoyuldu*

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında operativ qərargah koronavirusla əlaqədar növbəti məlumat açıqlayıb.**

Qərargahdan baki-xeber.com-a bildirilib ki, İran İslam Respublikası ərazisində olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizə geri qayıtması təmin edilir. Bununla əlaqədar İran İslam Respublikasında olan vətəndaşlarımızın Azərbaycan Respublikasının Tehran şəhərindəki Səfirliyinin və Təbriz şəhərindəki Baş Konsulluğunun "qaynar xətt"inə daxil olan müraciətləri qeydiyyata götürülür.

Vətəndaşlarımızın qayıdışı sərhəd-keçid məntəqəsində əvvəlcədən müəyyən edilmiş vaxtlarda fəaliyyət göstərən xüsusi dəhliz vasitəsilə həyata keçirilir. Bu məqsədlə İrandan Astara sərhəd-keçid




məntəqəsinə gələn vətəndaşlar müvəqqəti qalma yerləri və zəruri şəraitlə təmin edilib, müəyyən olunmuş qrafiklə 276 nəfər Azərbaycan ərazisinə keçib. Sərhədi keçən vətəndaşlar xüsusi ayrılmış avtobuslarla karantin zonalarına aparılıb. Qeyd edək ki, İran İslam Respublikasından qayıdan vətəndaşlar mütləq şəkildə 14-29 gün müddətinə karintin rejiminə yerləşdirilir. Bütün vətəndaşlardan karantin rejiminin tələblərinə riayət etmək tələb olunur.

Əlavə sorğular üçün vətəndaşların Azərbaycan Respublikasının Tehrandakı Səfirliyi və Təbrizdəki Baş Konsulluğunda açılmış "qaynar xətt"ə müraciət etməsi tövsiyə edilir. Sorğular daxil olduqdan sonra vətəndaşlarımızın Azərbaycana keçidinin uçuş reysi və xüsusi ayrılmış sərhəd dəhlizi ilə həyata keçirilməsi nəzərdə tutulur.

Bu arada, İran İslam Respublikasının dövlət bayrağı altında üzən gəmilərin Azərbaycan Respublikasının limanlarına girişinə müvəqqəti olaraq məhdudiyyət qoyulub. Dövlət Dəniz Agentliyinin mətbuat xidmətinin rəhbəri Tural Müseyibovun "Trend"ə verdiyi məlumata görə, koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə görülən qabaqlayıcı tədbirlər çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi tərəfindən İran İslam Respublikasının dövlət bayrağı altında üzən gəmilərin Azərbaycan Respublikasının limanlarına girişinə müvəqqəti olaraq məhdudiyyət qoyulur.

**Dövlət Dəniz Agentliyi tərəfindən bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi və lazımi tədbirlərin görülməsi daim diqqət mərkəzində saxlanılır.**

# Xaricdən Azərbaycana gələn idmançılar koronavirusa görə yoxlanacaq

**Bakıya gələn hər bir insan yoxlanacaq. Hər bir insandan tələb edəcəyik ki, sağlamlıq haqqında arayışla gəlsinlər.**

"Trend"-in məlumatına görə, bunu jurnalistlərə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə koronavirusun yayıldığı İtaliyanın idmançılarının martda Bakıda keçiriləcək karate üzrə Avropa çempionatında iştirakı barədə məsələyə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, sərhəddə hamı yoxlanacaq:"İdmançı sağlamdırsa, yarışa qatılacaq. Sağlam deyilsə, hansısa şübhəli məqam varsa, yə geri qaytarılacaq, ya da karantində saxlanılacaq. Bu bizim istəyimiz deyil, Ümumdünya Səhiyyə Təşkilatının tələbidir".

Ç.Hüseynzadə bildirib ki, yarışların təxirə salınması heç kimdən asılı deyil: "Bu nə bizdən, nə də başqa şəxslərdən asılıdır. Ona görə də yarışlardan hansısa təxirə salına və ya daha təhlükəsiz yerlərə keçirilə bilər.

Amma bunların hamısı baş tutacaq. Nəzərdə tutulmuş bütün tədbirlər keçiriləcək".

# Prezident potensial virus daşıyıcısı ola biləcək əcnəbilərə nəzarətin yeni üsulunu tətbiq etdi - İrandan tranzit yük daşıyan sürücülər...

**"Göstəriş vermişəm, xarici sürücülərə yemək təqdim edilsin ki, onlar idarə etdikləri maşınlardan tez-tez çıxıb ictimai yerlərə getməsinlər". Bunu Prezident İlham Əliyev Goranboy Rayon Mərkəzi Xəstəxanasının kollektivi ilə görüşdə çıxışı zamanı bildirib.**

*"Fikrimcə, Prezidentin bu qərarı çox önəmli addımdır"*

Ölkə başçısının sözlərinə görə, heç bir dövlət bu günə qədər yükdaşımaların həyata keçirilməsinə məhdudiyyət qoymayıb, o cümlədən, Azərbaycan da: "Bildiyiniz kimi, Azərbaycan tranzit ölkədir və biz uzun illər çalışırdıq ki, öz tranzit potensialımızı genişləndirək, buna nail ola bilmişik. Heç bir tranzit yüklər üçün məhdudiyyət qoyulmur. Ancaq biz bu sahəyə də xüsusi diqqət göstəririk, tranzit yüklərin, xüsusilə cənub istiqamətindən ölkəmizə daxil olan, həm Azərbaycan istehlakçıları, həm də qonşu ölkələrin istehlakçıları üçün lazımi yüklərin çatdırılması ilə bağlı mütəşəkkil qaydada işlər aparılır, müvafiq yük maşınlarından ibarət xüsusi kolonlar formalaşdırılır, polis müşayiəti təmin edilib. Eyni zamanda, göstəriş vermişəm, xarici sürücülərə yemək təqdim edilsin ki, onlar idarə etdikləri maşınlardan tez-tez çıxıb ictimai yerlərə getməsinlər. Yəni hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır".

Görünən odur ki, koronovirusun yayılma risqinin qarşısını almaq üçün ən xırda detallar belə nəzərə alınıb. Bu baxımdan əcnəbi sürücülərlə bağlı tətbiq olunan bu qaydaların əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, əcnəbi sürücülərlə bağlı bu kimi tədbirlərin görülməsi virusun yayılma risqini minimuma endirir: "Ona görə də virusun yayılmasının qarşısını almaq üçün görülən bu kimi tədbirlər öz müsbət nəticəsini verəcək. Nəzərə

## Aydın Hüseynov: *"Əcnəbi sürücülərlə bağlı bu kimi tədbirlərin görülməsi virusun yayılma risqini minimuma endirir"*



almaq lazımdır ki, bütövlükdə, Azərbaycanda hökumət tərəfindən bununla bağlı çox önəmli tədbirlər həyata keçirilir. Bütün mümkün vasitələr işə salınır. Belə ki, büdcədən vəsait ayrılıb və ictimai yerlərdə dezinfeksiya tədbirləri görülür.

Eyni zamanda, qeyd olunduğu kimi, cənab Prezident xarici sürücülərlə bağlı məqama toxundu. Hesab edirəm ki, bu çox önəmli məsələdir. Yəni onların yeməklə təmin olunması ictimaiyyətlə təmas yaratmalarına şərait yaratmır. Bu da virusun yayılma risqini önləyir. Fikrimcə, Prezidentin bu qərarı çox önəmli addımdır. Bütün bunlarla yanaşı, hər bir vətəndaş öz sağlamlığının qeydinə qalmalıdır. İctimai yerlərdə təmaslar zamanı diqqətli olmaq, lazımi gigiyena qaydalarına əməl etmək lazımdır. Belə olarsa, o zaman təbii ki, virusla bağlı risqlər daha da azalacaq".

*Vidadi ORDAHALLI*

# Bazarda antivirus maskalarını bahalaşdıran kimlərdir? - Prezidentin əsaslı tələbi maraqlı araşdırmalara start verdi...

**Prezident İlham Əliyev Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edərkən virusun qarşısını almaq üçün nəzərdə tutulan tibbi maskaların çatışmazlığına dair fikir səsləndirib: "Mənə verilən məlumata görə, son vaxtlar apteklərdə maskaların çatışmazlığı müşahidə olunur. Buna heç cür izahat tapmaq mümkün deyil".**



## İlqar Hüseynli: *"Onların da sayı barmaqla sayılacaq qədərdir, sahiblərini də hamı tanıyır"*

Dövlət başçısı bildirib ki, hazırda ölkəmizin kifayət qədər maska ehtiyatı var: "Görünür ki, hansısa möhtəkirlər bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyirlər. Bütün hüquq-mühafizə orqanlarına tapşırıq verilib ki, əgər belə hallar aşkar olunarsa, bu hallara yol verən vətəndaşlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcəkdir. Çünki indiki şəraitdən istifadə edərək, öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan ünsürlərə qarşı ancaq çox ciddi cəza tədbirləri tətbiq edilməlidir".

Prezident İlham Əliyev bir daha ictimaiyyəti əmin edib ki, Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür: "Bu günə olan mənzərəyə görə, narahatlığa heç bir ciddi əsas yoxdur. Karantində qalan vətəndaşların mütləq əksəriyyətində hələ ki, heç bir xəstəlik əlaməti aşkarlanmayıb. Əgər onların sağlamlığı normal olarsa, lazımi müddətdən sonra evlərinə buraxılacaqlar. Hesab edirəm ki, bu günə qədər bu məlumat kifayətdir. Eyni zamanda, göstəriş verilib ki, bu məsələ ilə bilavasitə məşğul olan bütün səhiyyə orqanlarının nümayəndələri - Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyi müntəzəm olaraq vətəndaşları məlumatlandırsınlar".

Göründüyü kimi, tibbi maskalarla bağlı vəziyyətin şəxsi qazanc məqsədilə gərginləşdirildiyi üzə çıxır. Bu hətta Prezident səviyyəsində bəyan edilirsə, deməli, vəziyyət ciddidir. Belə möhtəkirliklə hansı səviyyədə mübarizə aparılmalıdır?

Ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu sahədə vəziyyət çox acınacaqlıdır: "Biz sizinlə məsələyə toxunmuşduq. Goranboydakı açılışda isə Prezident yaranmış vəziyyətdən danışdı. Ortada olan nəticə budur ki, vəziyyətdən istifadə edib, külli miqdarda pul qazanmaq eşqinə düşən möhtəkirlər var. Onlar da öz istəklərini yerinə yetirə bilirlər. Ölkə başçısı bunun araşdırılmasını, hətta təqsirkarların məsuliyyətə cəlb edilməsini dedi. Mən də düşünürəm ki, lazımdır və bunu müəyyən etmək çox asandır. Maskaların qiymətinin qalxmasında aptekləri günahkar saymaq doğru olmazdı. Çünki epidemiya ilə bağlı vəziyyət gərginləşən kimi apteklərə maskalar limitlə verilməyə başladı. Limitlə verildiyini qəbul etmək olar. Ancaq anbarlarda olan malı baha qiymətə satmaq möhtəkirlikdən başqa nəsə deyil. Azərbaycanda aptek şəbəkələrinin dərman təminatını dövlət yox, özəl şirkətlər həyata keçirirlər. Onların da sayı barmaqla sayılacaq qədərdir, sahiblərini də hamı tanıyır. Vəziyyəti gərginləşdirən də məhz onlardır. Çox ucuz qiymətə alıb anbara yığdıqları maskanı necə və hansı əsasla baha satırlar? Son bir ayın araşdırılması aparılsa, bu məlum olar. Eyni zamanda, gömrükdən yoxlamaq lazımdır ki, həmin firma son günlər ərzində ölkəyə maska idxal edibmi? Bunun adı cinayətdir. Burada süni qiymət artımından tutmuş, nəyə kimi desən var. Ən əsası isə vicdan anlayışı pozulur. Deməli, belə çıxır ki, dərman təchizatı ilə məşğul olan şirkətlər xalqın pis vəziyyəti üzərindən pul qazanmağı da özlərinə şərəf bilirlər".

*Məhəmmədəli QƏRİBLİ*

### Azərbaycan Mətbuat Şurası koronavirusla bağlı bəzi KİV-in təqdimatlarına dair məlumat yaydı

**Son günlər Azərbaycan mediası koronavirus, onun dünyadakı təsirləri, ölkəmizdəki vəziyyət barədə məlumatlara daha çox üstünlük verməkdədir və bu təbiidir. Mətbuat Şurasının müşahidələri göstərir ki, aparıcı, ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrimizin mövzuya yanaşması peşəkarlıq standartlarına ümumən cavab verir. Bununla belə, media məkanımızda virusla bağlı təşviş, qorxu, həyəcan yaradan çoxsaylı əsassız mülahizələrə də rast gəlinməkdədir.**

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

Mətbuat Şurası hesab edir ki, bəzi media orqanlarının, xüsusən də xəbər saytlarının koronavirusla bağlı təqdimatları peşəkarlıqdan tam uzaqdır. Onların reyting qazanmaq naminə həyata keçirildiyi şübhə doğurmayan fəaliyyətlərində real vəziyyət nəzərə alınmır. Belə yanaşma cəmiyyəti yanlış yönləndirmək cəhdidir. Buna qarşı isə müvafiq hüquqi addımların atılması mütləqdir.

Xəstəlik epidemiyasıyla əlaqədar kütləvi çaşqınlıq, hansısa idarəolunmaz durumun yarandığına dair fikirlərin təqdimatı yolverilməzdir. Media məsələyə münasibətdə həssas davranmalı, yalnız həqiqətləri işıqlandırmalı, müxtəlif sosial şəbəkələr vasitəsilə dövriyyəyə buraxılmış mülahizələrin reallıq kimi insanlara çatdırılmasından uzaq durmalıdır. Jurnalistlər nəzərə almalıdırlar ki, yayılmış yalanın mənfi təsiri xəstəliyin özünün neqativ təsirlərindən daha güclüdür.

KİV-lərin belə durumlarda nümayiş etdirdiyi həssaslıq, soyuqqanlılıq ən böyük peşəkarlıq göstəricisidir. Peşəkarlıq rəsmi qurumların məlumatlarına istinad, müxtəlif yollarla əldə edilmiş bilgilərin rəsmi təsdiqinə nail olmaqdır. Azərbaycan Mətbuat Şurası bunları bəyan edərək bildirir ki, koronavirusla bağlı xəbər olaraq yayılmış materiallar ciddi şəkildə diqqətdə saxlanılacaqdır. Qurum rəsmi mənbəyi olmayan, hansısa söz-söhbətlərə, dedi-qodulara söykənmiş materialların hüquq çərçivəsində qiymətləndirilməsi üçün səlahiyyətləri daxilindəki bütün tədbirləri görəcəkdir.

Mətbuat Şurası KİV təmsilçilərini indiki şəraitdə cəmiyyət üçün həssas olan mövzunun işıqlandırılmasında obyektivlik nümayişinə, tələskənliyə yol verməməyə, yalnız həqiqətləri qələmə almağa çağırır.

# "Sozcu.az" xəbər portalının təsisçisinə koronavirusla bağlı xəbərdarlıq edildi...



**Baş Prokurorluqda aparılmış araşdırmalarla "sozcu.az" xəbər portalında "Kütləvi informasiya vasitələri haqqında" AR Qanununun tələbləri kobud şəkildə pozulmaqla ictimaiyyətdə təşvişə səbəb olan "COVID-19" adlanan virus və ya koronavirus epidemiyası ilə ölkəmizdə qabaqlayıcı mübarizə tədbirlərinin gedişatı, habelə xəstəliyə yoluxma** ehtimalı olan şəxslərin tibbi müayinədən keçirilməsi və nəzarət altına alınması barədə aidiyyəti qurumların mətbuat xidmətləri tərəfindən ictimaiyyətə mütəmadi olaraq ətraflı məlumatlar verilməsinə, eləcə də sensasiya naminə reallığı əks etdirməyən məlumatların yayılmaması məqsədilə səlahiyyətli qurumların mətbuat xidmətləri ilə dəqiqləşdirmələrin aparılması tələb edilməsinə baxmayaraq, həmin portalda ayrı-ayrı vaxtlarda müxtəlif başlıqlı məqalələrdə epidemiyanın guya respublika ərazisində geniş miqyasda yayılması, xəstəliyə yoluxmuş şəxslərin müalicə müəssisələrində vəfat etmələri barədə qəsdən və qərəzli şəkildə həqiqətə uyğun olmayan, yalan məlumatların dərc edilməsi, süni ajiotaj yaratmaq məqsədilə xəbər başlıqlarının məzmununda bilə-bilə çaşqınlığa səbəb olan ifadə və fotoşəkillərdən istifadə edildiyi müəyyən edilib.

Qeyd edilənlərlə əlaqədar portalın təsisçisi Məmmədov Elşən Əli oğlu Baş Prokurorluğa dəvət edilərək, ona "Prokurorluq haqqında" AR Qanununun tələblərinə müvafiq olaraq "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 10-cu maddəsinə əsasən yalan və qərəzli yazıları yaymaq məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasının yolverilməzliyi diqqətinə çatdırılmaqla, gələcəkdə belə xarakterli, qərəzli və qanunvericiliyin tələblərinə zidd məlumatların yayılmasını davam etdiriləcəyi təqdirdə barəsində, cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib.

Baş Prokurorluq bildirir ki, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat xidmətləri ilə dəqiqləşdirmə aparılmadan bu qəbildən olan qanunazidd hərəkətlərə yol verən kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcək.

# Avstriyanın İctimai Radiosunda Azərbaycanla bağlı zəngin proqramlar hazırlanır

## *Yohans Groys: "Bir həftə ərzində "Qonşu Azərbaycan" adlı 3 veriliş efirdə olacaq"*

**Avstrya İctimai Radiosunun aparıcısı Yohans Groys (Mister Hans ) Azərbaycandadır. Diaspor Komitəsinin mətbuat xidməti Mister Hansın ölkəmizlə bağlı təəssüratlarını oxucularla təqdim edir.**

**- Mister Hans, sizi studiyamızda salamlayıram. Biliyim qədərilə Siz Avstryanın İctimai Radiosunda proqram aparırsınız. Ümumiyyətlə, verilişiniz nədən bəhs edir?**

- Verilişim mədəniyyətlə bağlıdır. Musiqi, din və bir az da siyasətdən bəhs edir. Sizin milli bayramınızla əlaqədar 21 martdan etibarən bir həftə davam edəcək verilişlərimizdə Azərbaycan, Bakı barədə yayımlar edəcəyik. Mövzumuz azərbaycanlıların yaşayışı olacaq. Azərbaycan barədə daha çox miflər eşidirik, məlumatımız çox azdır. Çalışacağıq ki, bir həftə ərzində sizə daha yaxın olaq.

**- Bu Sizin Azərbaycana ilk səfərinizdir?**

- Bəli , ilk səfərimdir.

**- Səfərdən öncə Azərbaycanı necə təsəvvür edirdiniz və indi təssüratlarınız necədir?**

- Eurovision Mahnı Müsabiqəsinin burda keçirildiyi dövrü xatırladım. Elə bura gəlməyim də onunla bağlıdır. Musabiqə vaxtı Bakı haqqında sənədli filmlərə baxmışdım. Azərbaycanda qadınların təhsil səviyyəsinin çox yüksək olduğunu eşitmişdim. Düzü, bu bir az məni təəccübləndirmişdi. Fikirləşirdim, necə ola bilər ki, müsəlman ölkəsində qadınların yarısının ali təhsili olsun. Mən özüm fəlsəfə üzrə təhsil almışam, ona görə də məni kişilərin, insanların bu məsələyə münasibəti daha çox maraqlandırırdı. Bakı haqqında bildiyim məlumat Alov qüllələrinin burada yerləşməsi və neftlə zəngin olması idi. Başqa heç nə bilmirdim. Ona görə də hələ Vyanada olanda araşdırmaya başladım. İndi məncə, 2-3 % nəsə öyrənmişəm. Ümid edirəm ki, sabah dini təsirləri araşdırmaq üçün Şəkiyə gedə biləcəyik. Bugün də İctimai televiziyada oldum. Düzü, bir xeyli təəccübləndim. Fərqli şəkildə müsahibənin götürüldüyü 3D innovativ yayım forması ilə tanış oldum. Mənim üçün bu çox maraqlı idi. Mən həmçinin İctimai Radioya da baş çəkdim. Məsələn, İctimai Radioda sürücülər üçün ayrı proqram var. Bizim Radioda bu cür verilişlər yoxdur. Maşını necə düzgün sürmək lazımdır?! Bu həm əyləncəlidir, digər tərəfdən isə belə verilişlər çox maraqlıdır.

**- Azərbaycanla bağlı hansı mövzulara toxunacaqsınız?**

- Bir həftə ərzində "Qonşu Azərbaycan" adlı 3 veriliş efirdə olacaq. Birinci veriliş Azərbaycanda din mövzusuna həsr olunacaq, məscidlər, kilsələr və sinaqoqlar barədə olacaq. Növbəti verilişdə Azərbaycanda feminizm və qadınların təhsili məsələsinə toxunacam. Üçüncü proqramda isə səat yarım incəsənət və musiqidən söhbət açacağıq. Burda bacardığımız qədər Azərbaycan musiqisi və incəsənət təqdim edəcəyik.

*"Fikirləşirdim, necə ola bilər ki, müsəlman ölkəsində qadınların yarısının ali təhsili olsun"*

**- Şəkiyə səfər edəcəksiniz. Başqa planlarınız varmı?**

- Bəli, biz Şəkiyə gedəcəyik. Orda bir kənd var. Düzü adı indi yadımdan çıxıb.Orda müxtəlif dini təsirlərin olduğunu bilirəm. 3 gün vaxtım var . Ona görə bazar günü Bakıya qayıdıb, yenə burda araşdırma aparmalıyam.

**- Azərbaycan barədə araşdırmalara necə başladız?**

- Araşdırmaya necə başladım? 9 yaşlı oğlum Nilsin sinif yoldaşı Ayişənin anası ilə tanış olduq. Ondan soruşdum siz Azərbaycandansınız? Mən də elə Azərbaycan haqqında araşdırma aparıram. Yaxından kömək edənlərin olması çox yaxşıdır.

**- Gəldiyiniz üçün təşəkkür edirəm. Ümid edirəm ki, səfəriniz xoş keçəcək.**

- Təşəkkür edirəm. İşlərinizdə uğurlar arzu edirəm.

**Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç Daxili İşlər naziri Vilayət Eyvazova məktub göndərib. Məktubda AŞ komissarı iddia edir ki, guya bu günlərdə keçirilən aksiyalarda polis iştirakçılara qarşı zor tətbiq edib. Bu səbəbdən onlar bundan narahatdır.**

# Vilayət Eyvazova yazılmış məktubda bir cümlə ATƏT komissarının bütünlüklə media azadlığına baxışlarını ifşa etdi - aksiyanı işıqlandıran jurnalistlər...



## *Yadigar Məmmədli: "Jurnalistlərin amansız rəftara məruz qaldıqları ilə bağlı irəli sürülən fikirlər reallığı əks etdirmir"*

Ən qəribəsi odur ki, D.Miyatoviç aksiyaları işıqlandıran jurnalistlərin guya amansız rəftara məruz qaldıqlarını iddia edib: "Etiraz aksiyalarını işıqlandıran jurnalistlər etiraz aksiyaları dağıdılarkən hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən amansız rəftara məruz qoyulub".

Cavab məktubunda Daxili İşlər naziri Vilayət Eyvazov bildirib ki, bir qrup şəxs nəqliyyatın hərəkətinin intensiv və əhalinin sıxlığının yüksək olduğu MSK qarşısında etiraz aksiyaları keçirirdi. Təşkilatçılar polisə dəvət olunub və onlara əməllərinin qanunsuz olduğu bildirilib. Buna baxmayaraq, fevralın 16-da 120 nəfər MSK qarşısında yığışıb, vətəndaşların istirahət hüququnu və nəqliyyatın normal hərəkətini pozaraq, qanunsuz mitinq keçirməyə cəhd edib: "Bu zonada yaşayan vətəndaşların DİN-ə daxil olan fasiləsiz şikayətlərini nəzərə alaraq, hadisə yerinə polis qüvvələri göndərilib. Qanunsuz aksiyaya son vermək tələblərinə baxmayaraq, təşkilatçılar bu çağırışlara məhəl qoymayıblar. Bunu nəzərə alaraq, polis aksiyanın xüsusi aqressivliyi ilə fərqlənən iştirakçılarını saxlayıb".

Jurnalistlərə qarşı zorakılıq faktlarına gəlincə, nazir səmimi təəccüb ifadə edərək, jurnalistlərə qarşı, ümumiyyətlə, zorakılıq olmadığını, əksinə, bəzi jurnalistlərin qəsdən polisin funksiyalarını yerinə yetirməsinə mane olduğunu bildirib.

Həqiqətən də aksiyanı işıqlandıran jurnalistlərin hansısa təzyiqlə üzləşdiyini iddia etmək doğru deyil. Çünki belə olsaydı, o zaman bunu gizlətmək mümkün olmazdı. O üzdən, jurnalistlərin guya amansız rəftara məruz qaldıqları ilə bağlı D.Miyatoviçin səsləndirdiyi fikirlər tamamilə əsassızdır.

*"Hesab edirəm ki, bütün bunlar Dunya Miyatoviçin qərəzli yanaşmasından irəli gəlir"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədlinin sözlərinə görə, D.Miyatoviçin media mənsubları ilə bağlı səsləndirdiyi fikirlər reallığı əks etdirmir: "Parlament seçkiləri arxada qalıb. MSK bir sıra dairələrdə buraxılan nöqsanlara görə nəticələri ləğv edib. Belə ki, 4 seçki dairəsinin və bir neçə məntəqənin nəticələri ləğv edilib. Ancaq görünən odur ki, bütün bunlar Azərbaycanı istəməyən dairələri qane etmir. Ona görə də həmin dairələr adi bir məsələni şişirdib bundan Azərbaycana qarşı istifadə etmək istəyirlər. D.Miyatoviçin səsləndirdiyi məlum fikirlər də bu prosesin tərkib hissəsidir. Aydın məsələdir ki, seçkinin nəticələrindən bütün namizədlər razı qala bilməzlər. Təbii ki, seçkidə bir namizəd qalib olur və çox vaxt digərləri nəticədən narazı qalır.

Bu da normal haldır. Narazı qalan bəzi namizədlər bununla bağlı MSK-ya müraciət ediblər. Eləsi olub ki, MSK qarşısında icazəsiz aksiya keçirməyə cəhd ediblər. Bütün bunları əsas götürüb guya jurnalistlərin təzyiqə məruz qaldığını iddia etmək doğru deyil. Hətta jurnalistlərin amansız rəftara məruz qaldıqları ilə bağlı irəli sürülən fikirlər reallığı əks etdirmir. Hesab edirəm ki, bütün bunlar D.Miyatoviçin qərəzli yanaşmasından irəli gəlir".

***Vidadi ORDAHALLI***

---

**Ermənistan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlunun bəyanatına toxunub.**

# Ermənistan Qarabağ tənzimlənməsində Türkiyənin fəallaşmasından qorxuya düşdüyünü rəsmi bəyan etdi...

## *Akif Nağı: "Türkiyənin proseslərə müdaxiləsi bu məsələ ilə bağlı ədalətli qərarın qəbul edilməsinə köməklik göstərəcək"*

ATƏT-in Minsk Qrupunun həmsədrlərilə Türkiyə XİN başçısının görüşü barədə sualı və Anna Nağdalyanın cavabını təqdim edirik.

Sual: "Türkiyə Xarici İşlər nazirinin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü baş tutdu. Türkiyənin Dağlıq Qarabağ sülh prosesində iştirakını necə qiymətləndirirsiniz?"

Cavab: "Artıq ER Xarici İşlər nazirinin müvafiq reaksiyası olub. Əlavə edək ki, Ermənistana və erməni xalqına qarşı dost olmayan, Dağlıq Qarabağ münaqişəsi kontekstində Azərbaycana birtərəfli hərbi-siyasi dəstək verilməsində öz əksini tapan siyasətlə Türkiyə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində heç bir rol oynaya bilməz".

Qeyd edək ki, Ermənistanın bu narahatlığı ATƏT-in Minsk Qrupu həmsədrlərinin Türkiyədə Çavuşoğlu ilə görüşündən sonra artıb. Ermənistanın Xarici İşlər naziri həmin məsələyə münasibəti müqəddəs kitablarda müəyyən sitatlar gətirməklə cavablandırıb. Doğrudanmı Türkiyə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində heç bir rol oynaya bilməz?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı qəzetimizə açıqlamasında bildirdi ki, ermənilərin bu canfəşanlığının köklü səbəbləri var: "Türkiyə regionda fəaliyyətini bir az da canlandırıb. Xüsusilə də Suriyada, İdlibdə konkret, sərt addımlar atır, öz mövqeyini müdafiə edir. Düşünürəm ki, oradakı proseslərin Dağlıq Qarabağ probleminin həllinə də təsiri ola biləcək. Bilirsiniz ki, Rusiya ilə Türkiyə liderləri arasında görüş olacaq. Bütün dünyanın gözünün dikildiyi bu görüşdən gözləntilər çoxdur. Hesab edirəm ki, həmin görüşdə əldə ediləcək razılaşmanın Dağlıq Qarabağ məsələsinin həllinə də təsiri olacaq. Ermənilər Türkiyənin çox gücləndiyini görüb, narahat olurlar. Onlar hər zaman Türkiyənin Dağlıq Qarabağla bağlı atmaq istədiyi vasitəçilik səylərinə qarşı olublar. 1997-ci ilin əvvəlində üç həmsədr institutu formalaşanda Azərbaycan Türkiyəni həmsədr kimi təqdim etmişdi, ancaq ermənilər əleyhinə oldular. Yəni Ermənistan indi də Türkiyə ilə bağlı ənənəvi mövqeyini sərgiləyir.



Hadisələrin gedişi göstərir ki, Türkiyə Dağlıq Qarabağ probleminin nizama salınması ilə ciddi məşğul olmağa başlayıb. Həmsədrlərin də Türkiyədə M.Çavuşoğlu ilə görüşməsinin kökündə bu amil dayanırdı. Bu çox düzgün yoldur. Türkiyənin proseslərə müdaxiləsi bu məsələ ilə bağlı ədalətli qərarın qəbul edilməsinə köməklik göstərəcək. Türkiyənin prosesə istənilən vaxt müdaxilə etmək haqqı var. Həm Minsk Qrupunun üzvüdür, həm də proseslər onunla həmsərhəd olan iki dövlətin arasında cərəyan edir".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünya üçün böyük təhlükəyə çevrilən və qarşısının alınması üçün milyardlarla vəsait xərclənən koronavirusla mübarizədə Azərbaycan dövləti həyata keçirdiyi tədbirlərlə bir nümunə ortaya qoydu. Ölkəmizdə bu təhlükəli virusa qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi, bu istiqamətdə görülən işlər onu deməyə əsas verir ki, bu proses tam olaraq nəzarətdədir.**

"Səs" qəzeti və eyni adlı informasiya agentliyinin rəhbəri, siyasi şərhçi Bəhruz Quliyevin sözlərinə görə, Azərbaycandan fərqli olaraq, digər dövlətlərdə koronavirus problemi mi ajiotajla cəmiyyətə çatdırmaq doğru deyil. Çünki insanların heç də hamısı onu eyni cür qəbul edə bilmir, bəziləri bunu böyük təhlükə saysa da, panikaya düşsə də, bəzi insanlar Koronavirsula bağlı Azərbaycan cəmiyyətində, ictimaiyyətində aparılan araşdırmalar da onu göstərir ki, cəmiyyət, əhali dövlətin bu prosesə tam nəzarət etdiyinə əmindir və ona eyni zamanda da karantində olan xəstələrin müalicə olunması üçün ölkəmizdə lazımi şərait, formalaşdırılan xüsusi palatalar mövcuddur: "Onların sağalması üçün paytaxtla yanaşı,

# Azərbaycanda virusla bağlı vəziyyətin tam nəzarətdə olduğunu göstərən əsaslar...

***Bəhruz Quliyev:** ”...cəmiyyət, əhali dövlətin bu prosesə tam nəzarət etdiyinə əmindir”*

Ümumiyyətlə, Çin virusunun yayıldığı bir çox ölkədə baş verən ölüm halları, yoluxanların sayının artması onu göstərir ki, o ölkələrdə bu prosesə zamanında tam nəzarət edilməyib.

Məlum olduğu kimi, Azərbaycan Prezidentinin göstərişi ilə Nazirlər Kabinetinin yanında xüsusi operativ qərargah yaradılıb, lazımi tədbirlərin daha sürətlə həyata keçirilməsi üçün əlavə 10 milyon manat vəsait ayrılıb, İranda qalan Azərbaycan vətəndaşlarının təxliyyə edilməsi üçün xüsusi tədbirlər həyata keçirilir. Onların həm quru sərhəddən, həm də hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin edilir, İrandan gələn vətəndaşların lazım olan müddət ərzində karantində qalması zəruridir və bu, hər bir şəxs tərəfindən anlaşıqlıqla qarşılanmalıdır, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və uşaqları, yeniyetmələri qorumaq üçün tədris, təlim-tərbiyə müəssisələri müvəqqəti bağlanıb. Bu günə olan məlumata görə, Azərbaycanda xəstəliyin yayılması ehtimalı o qədər də yüksək olmasa da, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinq aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıb, heç bir ölkə yükdaşımaların həyata keçirilməsinə məhdudiyyət qoymayıb və tranzit potensialının gücləndirilməsini qarşısına məqsəd qoymuş Azərbaycan da analoji mövqe nümayiş etdirir.

Bununla yanaşı, xəstəliyin yayılmaması üçün bütün məsələlər hər bir xırdalığa qədər düşünülür və müvafiq addımlar atılır. Azərbaycan hökuməti Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır, xəstəliyi aşkar etmək üçün testlərin ölkəyə gətirilməsi ilə bağlı müvafiq işlər aparılır. Ölkəmizdə kifayət qədər maska var. Bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyənlərə qarşı ciddi cəza tədbirləri tətbiq ediləcək, koronavirusun yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının mühafizəsi istiqamətində bütün lazımi tədbirlər görülür. Ölkədə əhalinin narahatlığı üçün heç bir ciddi əsas yoxdur, karantində qalan vətəndaşların mütləq əksəriyyətində hələ ki, heç bir xəstəlik əlaməti aşkarlanmayıb. Onların sağlamlığı normal olarsa, lazımi müddətdən sonra evlərinə buraxılacaqlar.

Ölkəmizdə koronavirus təhlükəsi ilə bağlı məsələnin tam nəzarətdə olduğunu deyən bölgələrdəki xəstəxanalarda da şərait yaradılıb. Bu virusun lokallaşdırılması istiqamətində dövlət genişmiqyaslı işlər görür. Tədrisin dayandırılması, ali, orta məktəblərdə, eləcə də bağçalarda, əhalinin gur olduğu yerlərdə dezinfeksiya işlərinin aparılması da göstərir ki, bu tədbirlər yoluxma hallarının qarşısını alır. Bu virusun lokallaşdırılması prosesini dövlət nəzarətə götürüb. Faktiki olaraq, Azərbaycanda koronavirusla bağlı dünyanın digər ölkələrində olduğu kimi təhlükəli forma yoxdur. Görülən işlər, səhiyyə sistemində həyata keçirilən proseslər onu deməyə əsas verir ki, insanlarımız çox rahatdırlar" - deyə B.Quliyev qeyd etdi.



*”Bütün görülən işlər, verilən qərarlar onu göstərir ki, Azərbaycan dövləti koronavirus təhlükəsi ilə mübarizədə aktivdir”*

daha həyəcanla qarşılandı və ajiotaj səviyyəsinə qaldırıldı: "Bəlkə də burada hansısa dövlətin, beynəlxalq təşkilatın ictimai-siyasi marağı da rol oynadı. Yəni bu virusu bu qədər həyəcanla təqdim etməyə zərurət yox idi. Çünki bu yoluxucu xəstəliyin insanlar arasında yayılmasının qarşısının alınması üçün əsaslı addımların atılması daha doğru idi. Zaman-zaman bu kimi viruslar tüğyan edib, "Donuz qripi", "Quş qripi" kimi daha təhlükəli viruslara qarşı mübarizədə də ölkəmiz çox böyük işlər görmüşdü. Bu kimi virusları qorxulu, təhlükəli bir virus kimi bunu dünya üçün, insanlar üçün elə də qorxulu tendensiya hesab etmir. Dünyanın bir çox ölkəsində əhali koronavirusa görə bayıra çıxa bilmir. Bəzi dünya ölkələrindən fərqli olaraq, Azərbaycanda vəziyyət başqadır. İnsanların şəhərə çıxması, parklarda, ictimai nəqliyyatda, kütləvi yerlərdə görünməsi bəs edir ki, ölkəmizdə bu təhlükənin tam olaraq nəzarətdə olduğunu deyək. Koronavirusun yayıldığı ölkələrdə insanlar xüsusi ağızlıqlardan, geyimlərdən istifadə edirlər. Azərbaycanda isə əhalinin tam əksəriyyəti tam sakitdir, əndişəsizdir. görə heç bir təşviş, qorxu keçirmir. Dövlətə, dövlətin bu sahədə gördüyü məqsədyönlü işlərə, təhlükəsizlik tədbirlərinə güvənən insanlarımızın rahatlığı təbiidir. Bütün görülən işlər, verilən qərarlar onu göstərir ki, Azərbaycan dövləti koronavirus təhlükəsi ilə mübarizədə aktivdir və bu prosesi tam olaraq nəzarətdə saxlayır".

B.Quliyev qeyd etdi ki, Nazirlər Kabineti yanında operativ qərargah yaradılıb, bu qərargah vasitəsilə bu istiqamətdə görülən işlər barədə mütəmadi olaraq ictimaiyyətə məlumatlar verilir. Onun sözlərinə görə,

**B.Quliyevin sözlərinə görə, Azərbaycan dövlətinin gördüyü işlər, həyata keçirdiyi tədbirlər əhalini tam əmin edib. O, həmçinin, bildirdi ki, yerli mediada bu istiqamətdə maarifçilik funksiyasını yerinə yetirərək ucuz sensasiya ardınca getmədi. Müsahibimiz hesab edir ki, ölkəmizin bu problemi dəf etməsinə əsas təkan verən amil mətbuatın sensasiya yaratmağa meyl etməməsi, bu virus barədə müxtəlif ajiotaj, panika yaradacaq informasiya verməməsi, dövlətin bu virusu lokallaşdırmaq sahəsində gördüyü işlərdir.**

*İradə SARIYEVA*

Ermənistanın Baş naziri Nikol Paşinyanın qızı Məryəm Paşinyan aprel ayının 5-də bu ölkədə keçiriləcək referendum üçün hazırlanan təşviqat materialını sosial şəbəkə hesabında paylaşıb. "Qürurlu vətəndaş pasporu" olaraq adlandırılan təşviqat materialında Dağlıq Qarabağ bölgəsi və ona bitişik ətraf rayonlar Azərbaycandan ayrı göstərilib.

# Paşinyanın 5 aprel bukletlərində 7 rayonumuz və Qarabağ rəsmən Ermənistana "qatıldı"...

## Elşən Manafov: "Bu o deməkdir ki, artıq Ermənistan tərəfi Azərbaycanın torpaqlarının işğalı faktını ört-basdır etmək istəmir"




5 aprel referendumundan əvvəl Nikol Paşinyanın rəhbərlik etdiyi iqtidardakı "Mənim addımım" partiyası tərəfindən həyata keçirilən "Bəli" kampaniyasının təşviqat materialının üz qabığında Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi və ona bitişik ətraf rayonlar Azərbaycandan ayrı və Ermənistan xəritəsinin rəngində təqdim edilib.

Bu günə kimi Ermənistan rəhbərliyi Azərbaycan ərazilərini işğal etdiklərini inkar etməyə çalışıb. Daha əvvəl Ermənistanın rəsmi qurumları və rəsmi şəxsləri tərəfindən hazırlanan sənədlərdə Azərbaycanın işğal altında olan əraziləri heç vaxt Ermənistan ərazisi kimi göstərilməyib. Dağlıq Qarabağ bölgəsi, ona bitişik ətraf rayonlar BMT tərəfindən Azərbaycan ərazisi kimi tanınıb və bunu quruma üzv olan digər dövlətlər kimi Ermənistan da rəsmən qəbul edib.

Nikol Paşinyan və Ermənistanın əvvəlki rəhbərliyi Azərbaycan ərazilərinin işğalını yerli erməni əhalinin "azadlıq mübarizəsi" kimi təqdim etməyə çalışıblar. Hazırlanan qeyri-rəsmi xəritələrdə Dağlıq Qarabağ bölgəsi və ona bitişik ətraf rayonlar Azərbaycandan ayrı göstərilsə də, Ermənistanın tərkib hissəsi kimi təqdim olunmayıb. Ancaq Paşinyanın rəhbərlik etdiyi "Bəli" kampaniyasının təşviqat materialının üz qabığında yer alan xəritə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunun etirafıdır.

Maraqlıdır, bəs ekspertlər Paşinyanın bu avantürasına necə yanaşırlar?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Paşinyan bu addımı atmaqla Azərbaycanı provokasiyaya çəkmək istəyir: "Bu, Paşinyanın birinci təxribatı deyil. Paşinyan əvvəlki dövlət başçılarından fərqli olaraq, bir neçə dəfə Ermənistanın təhlükəsizlik şurasının iclasını bilərəkdən Xankəndində keçirib. Münhen debatında bütün parametrlər üzrə Azərbaycan Prezidentinə uduzduqdan sonra revanş götürməkdən ötrü yenidən Xankəndinə gəldi və orada analoji iclası keçirdi. Bu açıq-aşkar təxribat idi. Bu təkcə Azərbaycana deyil, eyni zamanda, beynəlxalq birliyə ünvanlanmış bir mesajdır. Bu o deməkdir ki, artıq Ermənistan tərəfi Azərbaycanın torpaqlarının işğalı faktını ört-basdır etmək istəmir. Hesab edirəm ki, bütün bunlara bölgədə baş verən regional gərginlik kontekstində yanaşmaq lazımdır. Ermənistanın özündə Türkiyənin Suriyada həyata keçirdiyi əməliyyatlardan sonra bir qorxu yaranıb. O da ondan ibarətdir ki, Türkiyə Qarabağ probleminin həlli ilə bağlı danışıqlara girişə bilər. Rusiya ilə bu məsələdə müəyyən razılıqlar əldə edilə bilər. O halda, Ermənistanın duruş gətirə bilməyəcəyi birmənalıdır. Azərbaycan Ordusunun keçirdiyi hərbi təlimlərdən də Ermənistan narahatdır. Bununla belə, Paşinyan Ermənistanda korrupsiyadan, ağır sosial-iqtisadi vəziyyətdən ictimaiyyətin diqqətini yayındırmaq üçün bilərəkdən bu cür təxribatlara gedir. Bununla Ermənistan tərəfini müharibə faktoru qarşısında qoymaq istəyir. Bu cür yolla problemin həllini uzatmaq və mövcud status-kvonu qoruyub saxlamaq istəyir. Çünki mövcud status-kvo Ermənistanın maraqlarına cavab verir".

*"Paşinyan korrupsiyadan, ağır sosial-iqtisadi vəziyyətdən ictimaiyyətin diqqətini yayındırmaq üçün bilərəkdən bu cür təxribatlara gedir"*

***Vidadi ORDAHALLI***

---

Azərbaycanın genişmiqyaslı hərbi təlimləri Ermənistanda ciddi narahatlığa səbəb olub. Erməni KİV-i yazır ki, tanınmış erməni hərbi mütəxəssisi Van Ambartsumyan jurnalistlərlə söhbətində Ermənistan silahlı qüvvələrini əks balans tədbiri kimi bir nömrəli döyüş hazırlığı səviyyəsinə gətirməyə çağırıb.

# Ermənistan üçün xofdan törəyən hərbi qərar - Azərbaycanın təlimlərindən sonra ordu hazır vəziyyətə gətirildi...

## Daşdəmir Əliyev: "Biz bəyan edirik ki, işğal altında olan torpaqlarımızı istənilən vaxt işğaldan azad etməyə hazırıq"

## Ramil Məmmədli: "Bu ərazilərin işğaldan azad edilməsi ilə bağlı təlimlərin keçirilməsi..."



V.Ambartsumyan Azərbaycan Ordusunun hərbi təlimlərini səfərbərlik kimi xarakterizə edib.

Onun sözlərinə görə, Ermənistan ordusunun bu cür hazırlığı vacibdir, çünki "Azərbaycan öz hərəkətlərində həmişə sürprizlərə üstünlük verib və Ermənistan onlara cavab verməyə hazır olmalıdır".

"Ermənistan rəhbərliyinin bilməsi vacibdir ki, hər hansı bir müharibə ehtiyatların səfərbərliyindən başlayır və bu təlimlər zamanı da Azərbaycan ciddi şəkildə gizlədərək ehtiyatda olanları da səfərbər edib. Həmçinin, uzaqmənzilli silahlar, məsələn, reaktiv yaylım atəş sistemi (RYAS) "Polonez" də cəlb olunub".

Hərbi ekspert Ermənistan cəmiyyətini milli həmrəyliyə çağırıb və qeyd edib ki, ölkə hakimiyyəti planlaşdırılan referendumu təxirə salmalıdır. Qeyd edək ki, bəzi erməni KİV-i isə yazır ki, yaranmış vəziyyətdən ehtiyat edən Ermənistan ordunu tam hazırlıq vəziyyətinə gətirib.

Xatırladaq ki, Azərbaycanda genişmiqyaslı komanda-qərargah təlimləri başlayıb. Təlimlər martın 6-dək davam edəcək. Ermənistanın bu şəkildə narahatlığının nə kimi əsasları ola bilər?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan müstəqil ölkədir, hərbi doktrinasını özü müəyyən edir: "Müstəqil ölkə kimi, biz nə Ermənistandan, nə də onların havadarlarından icazə istəməli deyilik. Təlimlərin bir niyyəti var. Bütün qoşun növlərinin birgə fəaliyyətini döyüş zamanı düzgün koordinasiya etmək. Həmin təlimlərdə yeni silahların sınaq atışları da həyata keçirilə bilər. Biz bu təlimləri gizli keçirmirik. Təlimlər başlamadan öncə bu barədə ölkəmizdə olan səfirliklərin nümayəndələrinə, hərbi attaşelərinə məlumat vermişik. Bizim dövlət rəhbərliyi Ermənistana qarşı müharibə etməklə bağlı bəyanat verməyib. Ancaq biz bəyan edirik ki, işğal altında olan torpaqlarımızı istənilən vaxt işğaldan azad etməyə hazırıq. İşğalın arxasında Ermənistan durduğundan, onlar bu mövzuda narahatlıq keçirirlər. Ancaq bilsinlər ki, Azərbaycanın ərazilərini istənilən vaxt işğaldan azad etmək hüququ var. Biz bununla bağlı Ali Baş Komandanın əmrini gözləyirik".

Hərbi-siyasi icmalçı Ramil Məmmədlinin sözlərinə görə, martın 2-də qoşunların 2020-ci tədris ilinin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusu genişmiqyaslı komanda-qərargah təlimlərinə başlayıb: "Martın 6-dək davam edəcək təlimlər informasiya texnologiyalarının geniş tətbiqi, həmçinin, heyətlərin vaxt göstəriciləri və qəbul edilən qərarların icrası planlarının yoxlanılmasının müvafiq idarəetmə orqanları ilə dəqiqləşdirilməsi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunacaq".

Onun sözlərinə görə, hazırkı təlimlərdə Azərbaycan Ordusunun ehtiyat silahlardan istifadə etməsi kimi fikirlər tamamilə əsassızdır: "Əlbəttə ki, Azərbaycan Ordusunun təlimlərində işğal olunmuş ərazilərin azad olunması istiqamətində əməliyyatların və hazırlıqların aparılması kimi məsələlər bir nömrəlidir. Bu da təbii haldır. Çünki Ermənistan ordusu tərəfindən Azərbaycanın 20 faizə yaxın ərazisi işğal edilib. Bu ərazilərin işğaldan azad edilməsi ilə bağlı təlimlərin keçirilməsi təbiidir. Hesab edirəm ki, hazırkı təlimlərdə Azərbaycan Ordusunun ehtiyat silahlardan istifadə etməsi kimi Ermənistan tərəfinin fikirləri beynəlxalq ictimaiyyət və təşkilatlarda Azərbaycan haqqında işğalçı imici yaratmaq məqsədi daşıyır. Bunlar isə həqiqətə uyğun olmayan fikirlərdir. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasındadır. Ordumuz hər an torpaqlarımızı işğaldan azad etməyə hazır vəziyyətdədir. Heç bundan ötrü də ehtiyat silahlardan istifadə etməyə ehtiyac yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirus yayılan hər ölkənin başçısı Azərbaycan Prezidenti kimi bölgələrə səfərlər etmir...

**Koronavirus təhlükəsinə görə əksər ölkələrdə kütləvi tədbirlərin, görüşlərin təxirə salındığı, hətta ölkə başçılarının belə kabinetə qapılaraq tədbirlərə, görüşlərə qatılmaması, ictimaiyyət arasına çıxmaması faktdır.**

Onlardan fərqli olaraq, Azərbaycan Respublikasının Prezidenti iştirak edəcəyi görüşləri, tədbirləri təxirə salmadı, hətta bölgələrə səfərə çıxdı, müxtəlif obyektlərin açılışında ictirak etdi, əhalilə, ictimaiyyətlə görüşlər keçirdi.

Bu onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev ən ağır, çətin dövrlərdə belə xalqın, ictimaiyyətin yanındadır. Fakt budur ki, koronavirus təhlükəsi ilə əlaqədar heç bir dövlət başçısı səfərlər etmədiyi halda, Prezident İlham Əliyev bölgələrə səfərini təxirə salmadı.

Hazırda koronavirus infeksiyasına yoluxmaq təhlükəsi olmasına baxmayaraq, Prezident İlham Əliyev bölgələrə getdi, Goranboy, Şəmkir və Qazax rayonlarında oldu, müxtəlif obyektlərin açılışında iştirak etdi, ictimaiyyət nümayəndələri ilə görüşdü. Koronavirusun yayıldığı ölkələrin heç birində dövlət başçısı regionlara səfər etmir, insanlarla görüşmür. Cənab Prezidentin bu addımı bir daha göstərdi ki, ölkənin regionlarında vəziyyət, insanların problemlərinin həlli dövlət başçısı üçün prioritet təşkil edən məsələdir. Prezident İlham Əliyev ən çətin, təhlükəli anlarda xalqın yanında, insanların arasında olub. Azərbaycanda zəlzələ və daşqın olanda, cəbhə bölgəsində hərbi əməliyyatlar gedəndə dövlət başçısı hər hansı təhlükədən çəkinməyərək bilavasitə yerlərə səfər edib, vəziyyətlə şəxsən tanış olub, insanlarla görüşüb, bütün məsələlərin həlli ilə bağlı göstəriş və tövsiyələrini verib.



### Əli Orucov: "Prezidentin bölgələrə bu səfərini təqdir edirəm"

### Azər Həsrət: "...Azərbaycan Prezidenti bölgələrə səfərini təxirə salmadı və xalqla bir yerdə olmağa üstünlük verdi"

AMİP təmsilçisi, politoloq Əli Orucov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev, həmişə olduğu kimi, bu dəfə də xalqla bir olduğunu sübut etdi. Ölkə başçısının bu addımının ölkədə bu prosesin tamamilə nəzarət altında olduğunu və insanların təşvişinə heç bir əsas olmadığını bir daha təsdiqlədiyini deyən Ə.Orucov hesab edir ki, Prezidentin bu addımı bir nümunədir: "Koronavirus təhlükəsi get-gedə dünyanı təşvişə salmaqdadır. Hər dövlət də öz əhalisini bu virusdan qorumağa çalışır. Bilirik ki, artıq dünyanın bir çox ölkəsində mədəni-kütləvi tədbirlər, yığıncaqlar təxirə salınır və dövlət başçıları o görüşlərə, tədbirlərə getmirlər. Təbii ki, bu həm də cəmiyyətin qorunması üçündür. Bu virus başqa viruslardan fərqli olaraq, təkcə sağlamlıq məsələsinə sirayət etmir, bu həm də dövlətlərin iqtisadi-siyasi maraqlarına zərbələr vurur. Bu baxımdan da, təbii ki, daha diqqətli olmağa ehtiyac duyulur".

Ə.Orucov qeyd etdi ki, Prezidentin bu səfərini, ümumiyyətlə, bölgələrə səfərlərini təqdir edir. "Prezidentin bölgələrə bu səfərini təqdir edirəm. O, xalqla həmişə görüşür və bu görüşlər xalqın fikirlərinin, onların vəziyyətinin öyrənilməsi baxımından da çox vacibdir. Bu vəziyyətdə Prezidentin bölgələrə səfəri müsbətdir. Bu da onu göstərir ki, bu virusdan ehtiyatlanmağa, təşvişə düşməyə ehtiyac yoxdur" - deyə Ə.Orucov vurğuladı.

Siyasi şərhçi Azər Həsrət də hesab edir ki, ölkə başçısının Goranboy və Qazaxa səfər etməsi və bu rayonların ictimaiyyətilə görüşlər keçirməsi bir örnəkdir: "Azərbaycan Respublikasının Prezidenti istənilən şəraitdə Azərbaycan xalqı ilə birlikdədir. Yəni ən çətin anlarda, bu kimi vəziyyətlərdə hər zaman xalqın içində olur. Ölkə başçısı təkcə koronavirusla mübarizə apardığımız günlərdə rayonlara səfər etməyib, həmçinin, təbii fəlakətlər, texnogen qəzalar baş verdiyi zamanlar da o, xalqın içində olub, onları dinləyib, tövsiyələrini verib. Şamaxıda baş vermiş zəlzələdən sonra Prezident və Mehriban xanımın Azərbaycan dövləti adına atdıqları addımlar bu günə kimi də hər kəsin yadındadır. Dediyim odur ki, cənab Prezidentin belə bir şəraitdə bu cür davranması təəccüblü deyil. Bu onun həyat amalıdır, iş tərzidir, xalqla iç-içə olmaq seçimidir. Ona görə də cənab Prezident koronavirus təhlükəsinə baxmayaraq, bu dəfə hətta əvvəlkilərdən fərqli səfər edib. Bilirsiniz ki, cənab Prezident adətən bir rayona, bir bölgəyə bir gün ərzində səfər edir, hansısa obyektlərin açılışında iştirak edir, görüşlər keçirir. Ancaq bu dəfə görürsünüz ki, bir neçə rayonu əhatə edən və bir neçə gün davam edən səfərə gedib.

Bu özü cənab Prezidentin xalqla iç-içə olmasının daha bir bariz nümunəsidir. Amma, məlum olduğu kimi, bir çox ölkənin başçıları səfərləri, görüşləri təxirə salırlar, fəaliyyətlərində ciddi dəyişikliklər edirlər, bu və ya digər şəkildə məhdudlaşdırırlar, daha çox kabinetdə oturub ölkələrini idarə etməyə çalışırlar. Amma öz kabinetlərinə qapanıb ölkələrini oturduqları yerdən idarə edən xarici ölkə başçılarından fərqli olaraq, Azərbaycan Prezidenti bölgələrə səfərini təxirə salmadı və xalqla bir yerdə olmağa üstünlük verdi. Bu bir daha onu təsdiqləyir ki, Azərbaycan Prezidenti sözdə deyil, əməldə xalqın adamıdır, xalqla iç-içə, çiyin-çiyinədir".

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Kremlin İrəvana yeni Qarabağ təzyiqləri başlanır - gündəmdə hərbi məzmunlu mübahisələr var

**Ermənistan Müdafiə Nazirliyi ilə Rusiyanın ORSIS şirkəti arasında qalmaqal bitməmiş Moskva və İrəvan arasında hərb sahəsində yeni ziddiyyət özünü göstərməkdədir. Söhbət Ermənistanın Rusiyanın təsir dairəsindən çıxmaq, İrəvanın digər ölkələrdən silah almaq cəhdlərindən gedir.**

Erməni mediası yazır ki, proseslər indiki templə davam edərsə, Moskva hərbi kreditlərini Ermənistanın üzünə bağlayacaq və ölkəyə silah satışını məhdudlaşdırmaqla İrəvanı çətin vəziyyətdə qoyacaq. Eyni zamanda, belə vəziyyətdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı da Kremlin İrəvana qarşı təzyiqlərin yeni dalğasını işə salması proqnozlaşdırılır. "İrates" qəzeti qeyd edir ki, Ermənistanda rusiyayönlü əhval-ruhiyyə zəifləməyə başlayıb və Moskva belə vəziyyətdə proseslərə seyrçi nöqteyi-nəzərdən yanaşmaq istəmir:"Rusiya hakim dairələri Ermənistandakı Qərb qüvvələrinin sürətli templərlə uğur qazanmağa başlamasından narahatdır. Üstəlik, Moskva regiondan çıxarılma təhdidini də görür. Bizim mənbələrimiz təsdiqləyir ki, Rusiyanın siyasi dairələri bu situasiyanı Ermənistandakı hazırkı hakimiyyətin antirusiya əhval-ruhiyyəli olması ilə əlaqələndirib. Onlar bunun ölkədə antirusiya əhval-ruhiyyəsinin dərinləşməsinə imkan yaratdığını bildiriblər". Qeyd olunur ki, bu vəziyyət Paşinyanın Moskvaya sevgi və sədaqətlə bağlı verdiyi bütün vədlərinə zidd mənzərə yaradır və onun rusofobiyasını gizlətməsi getdikcə çətinləşir. Nəşr qeyd edir ki, bu yaxınlarda baş tutmuş bir erməni-rus müzakirəsi zamanı siyasi xadimlər bu istiqamətdə ciddi dəyişikliklərin baş verdiyindən narahatlıqlarını ifadə ediblər: "Erməni siyasətçiləri hər gün Ermənistanın Rusiya ilə parlaq münasibətlərinin olmasından dəm vuraraq öz sədaqətlərini ifadə edirlər. İnqilabdan əvvəl bu adamlar kimlər idi? Rusiyada onların nümayişkaranə şəkildə antirus davranışlarını və inanclarını unutmayıblar. İndi çox az şey dəyişib, görünən yalnız zahiri qılafdır". Belə vəziyyətdə Rusiyanı narazı salan daha bir məqam isə, yuxarıda qeyd olunduğu kimi, İrəvanın rus silahlarından imtina niyyəti və digər ölkələrdən hərbi texnika almağa çalışmasıdır.

Məlumdur ki, bu günlərdə Ermənistan Hindistandan dörd "Swathi" kontrbatareya radiolokasiya stansiyası almaq barədə razılaşma əldə edib. Məlumata görə, sövdələşmənin dəyəri təxminən 40 milyon dollar qiymətləndirilir. Bildirilir ki, Ermənistan əvvəlcə Rusiya və Polşa istehsalı olan kontrbatareya mübarizəsi radarı almağı nəzərdən keçirib. Lakin sonda seçim Hindistan texnikasının xeyrinə edilib. Kremldə bunlar qəzəblə qarşılanır. Axı, Ermənistan əvvəlcə Rusiyanın "Zoopark-1" kontrbatareya sistemini almağa hazırlaşırdı. Lakin Ermənistan Müdafiə Nazirliyi iddia edir ki, həmin komplekslərin dağlıq relyefdə yaxşı işləmədiyi müəyyən olunub. Kreml bütün bunlardan ciddi şəkildə qəzəblənib və İrəvanın bu addımlarına müəyyən cavab verməyi düşünür. "İrates" qəzeti qeyd edir ki, bu halda Moskvanın cavab tədbirlərindən biri Azərbaycana daha güclü silahların satışının həyata keçirilməsi ola bilər. Üstəlik, "Swathi" kompleksi də elə güclü sayılmır. Bunu hərbi ekspert Ədalət Verdiyev də təsdiq edir: "Radarın Hindistanın hərbi müəssisələrində istehsal edilməyən bir çox komponentləri mülki müəssisələrdən əldə edilir, bu isə onların elan edilən standartlara uyğun olmasına dair şübhələrə yol açır. Passiv anten barmaqlığına malik RLS-ın AFAR tipli aktiv antenlə təchizatı hələ də müsbət nəticələrə səbəb olmayıb. Bütün bu çatışmazlıqlar isə "Swathi" radarının, ixrac potensialını əldə etməyə imkan tapmadan, əvvəlki nəslin nümayəndəsinə çevrilməsi ilə nəticələnib". O "ordu" portalına bildirib ki, Ermənistanın 4 ədəd "Swathi" RLS-i əldə etmək niyyəti, ən yaxşı halda, yalnız bir ədəd RLS batareyası formalaşdırmasına şərait yaradacaq: "Bu isə yüz kilometrlərlə uzanan cəbhə xətti boyunca, xüsusilə kütləvi artilleriya zərbələri zamanı, həm də dağlarda rəqib atəş vasitələrinin koordinatlarının aşkarlanmasında ciddi bir effekt verməyəcək. Hesab edirəm ki, bunu Ermənistan ordusunda anlayanlar az deyil. Maraqlı detallardan biri də Hindistan istehsalı bu radarlara Ermənistandan başqa heç kimin maraq göstərməməsindən ibarətdir. Hər bir ordu üçün zəruri olan texnikaya dünyanın 196 ölkəsinin nəinki sülh, hətta müharibə şəraitində olan 42 ordusundan, Ermənistan ordusu xaric, heç birinin maraq göstərməməsi doğrudan da düşündürücüdür. Təbii ki Hindistan heç vaxt texnologiya səviyyəsinə görə fərqlənməyib və bu normal hal kimi qəbul oluna bilər. İndiyə qədər Hindistan Rusiya silahlarını istehsal texnologiyası ilə birgə kifayət qədər yüksək qiymətə əldə edərək ölkədə yerli və ya milli hərbi sənaye görüntüsü ilə potensialının artdığını nümayiş etdirməyə çalışıb. Son dövrlərdə isə Rusiya ilə yaranan gərginlik rəsmi Dehlini İsrail və ABŞ tərəfə meyilləndirib. Daim Ermənistanı kreditlər hesabına daxili qiymətə hərbi avadanlıqlarla təchiz edən Rusiyanın da Ermənistanın bu addımına müsbət yanaşacağını iddia etmək çətin olardı". Onun sözlərinə görə, Hindistan RLS-lərin hər bir dəstini İrəvana 2 milyon dollardan daha baha qiymətə satıb: "Qiymət məsləsi daxili işləri olsa da, son günlərə qədər Rusiyanın zəifləməkdə olan hərbi potensialından yararlanan ölkələrin birlikdə Kremlin orbitindən uzaqlaşması Moskva tərəfindən birmənalı qarşılanmayacaq. Çünki Ermənistanın maliyyə sıxıntısı çəkdiyində Rusiyadan həm onun ayırdığı uzunmüddətli kreditlər hesabına, həm də daxili qiymətlərlə ucuz qiymətə sonuncu silahları əldə etməsindən heç bir il də keçməyib. Bu kontekstdə İrəvan üçün bu RLS-in tədarükü müəyyən başağrısı da gətirə bilər. Hindistanın isə, Ermənistandan fərqli olaraq, Rusiyadan miqyasına və alıcılıq potensialına görə bəzi güzəştlər əldə edəcəyi mümkündür".

Beləliklə, proseslərin gedişi göstərir ki, Ermənistanı Hindistanla yaxanılışması bu ölkəyə baha başa gələcək. Digər tərəfdən, onun aldığı kontrbatareya da düşmənə hansısa üstünlük qazandırmır. Düzdür, kontrbatareya mübarizəsi radarları müasir artilleriya müharibəsində çox mühüm əhəmiyyətə malikdir. Bu radiolokasiya stansiyaları hədəfə doğru uçan mərmiləri təsbit edir və onun trayektoriyasını, hansı nöqtəyə düşəcəyini və atəşin açıldığı artilleriya qurğusunun koordinatlarını müəyyənləşdirir. Nəticədə rəqib həmin mövqeyə dərhal əks-zərbə endirmək imkanı qazanır.

Qeyd edək ki, Azərbaycan öz ordusunu müasir kontrbatareya radarları ilə çoxdan təchiz edib və bu komplekslər 2016-cı ilin aprel döyüşləri zamanı Ermənistan ordusunun artilleriya bölmələrinin yerini dərhal təsbit edib onlara zərbə endirməyə imkan yaratmışdı. Həmin vaxt Ermənistan ordusunun silahlanmasında bu texnika yer almırdı. İndi Hindistandan alınan kontrbatareyalar Azərbaycan ordusunun ixtiyarında olanlarla müqayisədə xeyli geridə qalır. Ermənistan isə hərbi sahədə Azərbaycanla arasında yaranmış böyük fərqi hər vəchlə minimuma endirməyi hədəfləyir. Ancaq Ermənistan hökumətinin buna nail olması da mümkünsüz sayılır. Digər tərəfdən Azərbaycan ordusu da yerində saymır. Erməni ekspertlər özləri də həmişə Azərbaycanın hərbi üstünlüyünü etiraf edib. Söhbət təkcə hərbi heyətin və hərbi texnikaların say fərqindən getmir, həm də silahların keyfiyyəti bura daxildir. Üstəlik, Azərbaycanla Ermənistanın hərbi büdcə göstəricilərindəki kəskin fərqlər İrəvanın əleyhinə işləyir. Xatırladaq ki, Azərbaycanın 2020-ci il dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik sahəsinə 3 milyard 853 milyon manat xərc nəzərdə tutulur. Bu isə 2019-cu illə müqayisədə 21 faiz çoxdur. Ermənistanın isə 2020-ci il üçün hərbi büdcəsi 634 milyon dollar təşkil edəcək. Bu hal Bakının hərbi üstünlüyünün yüksəlməsinə əlavə təkan verir. Elə politoloq Qabil Hüseynli də bildirir ki, Ermənistanın hazırda bir çox sahədə ciddi silah çatışmazlığı var. Onun sözlərinə görə, Ermənistan Rusiyadan aldığı silahların çeşidini də çoxaldıb: "Ermənistan Azərbaycanla hərbi sahədə yaranmış fərqi aradan qaldırmaq üçün başqa ölkələrdən silah almağa meyllənib". Ekspertin fikrincə, Azərbaycanın bütün sahələr üzrə potensialı Ermənistanla müqayisəyəgəlməz səviyyədə üstündür. O, Azərbaycanın hərbi-texniki sahədə tərəfdaşlarının çox olmasına da diqqət çəkib. Politoloq Azərbaycanın yeni silahlar almaq istiqamətində danışıqlar apardığını xatırladıb:"Azərbaycan, Ermənistandan fərqli olaraq, bir çox ölkələrlə hərbi-texniki əməkdaşlıq edir.

Azərbaycan ən müasir silahlar, xüsusilə raketlər alır və bu proses davam edəcək. İsraildən ən müasir dronlar almaqda davam edirik. Uzaq məsafədə hədəfləri vura bilən raketlərin alınması istiqamətində isə Ukrayna və Belarusla danışıqları başa çatdırıb. Yaxın zamanlarda bu, praktiki məcrada həyata keçiriləcək. Ona görə də Ermənistanın silahlanma yarışında Azərbaycana çatması mümkünsüzdür". Digər tərəfdən o da faktdır ki, bu gün Azərbaycan postsovet ölkələri arasında hava hücumundan müdafiə sisteminə görə Rusiyadan sonra ən yüksək səviyyədədir. Hərbi Hava Qüvvələrinin silahlanmasına uzaqmənzilli S-300 PMU-2 "Favorit", "Buk-MB", orta mənzilli S-125 "Peçora TM-2", "Osa-AKM", "Spider", qısa mənzilli "Kruq", "Strela" və digər komplekslər daxildir. Azərbaycan İsraildən bir divizion "Barak-8" kompleksi də əldə edib. Ölkəmizdəki belə sistemlər ballistik və aerodinamik hədəfləri məhv etmək imkanına malikdir. Düşmən isə bütün bunlardan məhrumdur və həmin silahların bir çoxü Ermənistan üçün əlçatmaz görünür.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistanın anti-Rusiya siyasətinin yeni dalğasına cavab gəldi - Rusiyada Qarabağ separatçılarına yeni baxış...

**Rusiya hakimiyyəti qondarma Qarabağ rejiminin "xarici işlər naziri" Masis Mailyanın və keçmiş "müdafiə naziri" Samvel Babayanın Rusiyaya girişini 5 il müddətinə məhdudlaşdırmaq barədə qərar qəbul edib. Bu barədə Ermənistanın "Qraparak" qəzeti məlumat yayıb. Qəzet bu qərarın konkret səbəbini, habelə məlumatın mənbəyini açıqlamır.**



## *Arzuxan Əlizadə: "Rusiya Paşinyana yaxın olan şəxsin separatçı qurumun "prezidenti" olmasını istəməz"*

Qeyd edək ki, Mailyan hələlik Paşinyanın Qarabağdakı "prezident seçkisində" əsas namizədi sayılır. Mailyan və Babayan qarşıda duran 31 mart "Qarabağ prezidenti seçkilərində" birgə çıxış edirlər. Mailyan qarşıda duran "seçkilərdə" namizəddir, Babayan isə 10 il Qarabağda yaşamadığına görə bu imkandan məhrumdur. Babayan məhkəmə yolu ilə bu qərarın ləğvinə çalışsa da, bu baş tutmayıb. Nəticədə onun təsis etdiyi "Vahid Vətən" partiyası bu "seçkilərdə" Masis Mailyana dəstək verir.

Qəzet onu da qeyd edib ki, Mailyanın və Babayanın Rusiyaya girişinin qadağan edildiyi barədə məlumatı rəsmən nə təsdiq, nə təkzib edirlər. Lakin qərarın əsasında siyasi və ola bilsin həm də hüquqi səbəblər dayanır: "Biz bununla bağlı rəsmi sorğu göndərmişik və cavabını alanda dərc edəcəyik".

Qəzetin məlumatı təsdiqini taparsa, bunu Moskvanın Qarabağda bu şəxslərin hakimiyyətə gəlməsini istəməməsi kimi qiymətləndirmək olar. Belə olan halda, separatçı qurumda digər namizəd - Araik Arutyunyanın şansı artır. Çünki o, bu istiqamətdə fəal iş aparır.

O da məlumdur ki, son vaxtlar Ermənistan mediasında mütəmadi olaraq anti-Rusiya mövzusunda yazılar gedir. Rusiyanın məlum qərarı aparılan kampaniyaya, bir növ, cavab da ola bilər. Rusiyada Qarabağdakı separatçılarla bağlı yeni baxış formalaşır.

*"Ola bilsin ki, Qərb Qarabağ separatçılarını Kremlin təsir dairəsindən çıxarmaq istəyir"*

Maraqlıdır, bəs ekspertlər bütün bunların səbəbini nə ilə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin fikrincə, Rusiya Paşinyana yaxın olan şəxsin separatçı qurumun "prezidenti" olmasını istəməz: "Bu açıq həqiqətdir. Rusiya istəyər ki, sırf "Qarabağ klanı"nı təmsil edən şəxs orada seçilsin. Çünki Rusiya separatçı qurumdan həm Ermənistana, həm də Azərbaycana qarşı bir təzyiq vasitəsi kimi istifadə edir. Paşinyan isə bütün vasitələrlə istəyir ki, özünə yaxın olan şəxsi seçdirsin. Bəzi məlumatlara görə, Paşinyana yaxın olan şəxs Araik Arutyunyandır. Digər tərəfdən, Rusiya açıq formada kimi dəstəklədiyini bəyan etməz. Ancaq reallıq ondan ibarətdir ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Rusiya ilə Qərb arasında geosiyasi mübarizə kəskinləşib. Ola bilsin ki, Qərb Qarabağ separatçılarını Kremlin təsir dairəsindən çıxarmaq istəyir. Ermənistanda olduğu kimi, separatçı qurumda da analoji prosesləri təkrarlamaq istəyir. O üzdən, Rusiya Qərbin planlarını pozmaq üçün bu cür qabaqlayıcı addımlar atır. İstənilən halda, belə bir məlumatın yayılması təsadüfə oxşamır".

***Vidadi ORDAHALLI***

# Paşinyanın Ermənistanı Gürcüstanla eyni təhlükəsizlik müstəvisində göstərmək cəhdinin əsassızlığı - ərazi bütövlüyü tanınmır, erməni separatizmi gizli dəstəklənir...

**Ermənistanın Baş naziri Nikol Paşinyan Gürcüstana rəsmi səfər edib. Səfər çərçivəsində onun Gürcüstanın Baş naziri Giorgi Qaxariya ilə təkbətək və çoxtərəfli formatda görüşü keçirilib.**




## *Yeganə Hacıyeva: "Ermənistanla Gürcüstanın heç bir ortaq təhlükəsizlik marağından danışmağa dəyməz"*

N.Paşinyanın Prezident Salome Zurabişvili və parlamentin sədri Arçil Talakvadze ilə də görüşləri səfər proqramına daxildir.

Gürcüstanın Xarici İşlər naziri David Zalkaliani bildirib ki, görüşlərdə tərəflər koronavirusa qarşı birgə mübarizə, regional təhlükəsizlik məsələləri, ticari-iqtisadi əlaqələr, enerji sahəsində əməkdaşlıq kimi məsələləri müzakirə ediblər. Görüşdən sonra keçirilən mətbuat konfransında Ermənistanın Baş naziri iki ölkə arasındakı münasibətlərin əhəmiyyətindən danışıb: "Biz Gürcüstanın Avroatlantik məkana can atmasını müsbət qarşılayırıq. Bizim təhlükəsizliklə bağlı baxışlarımızda ümumi, üst-üstə düşən məqamlar var. Ermənistan Gürcüstan üçün, Gürcüstan isə Ermənistan üçün təhlükəsizliklə bağlı təhdid ola bilməz". Sonra Paşinyan iki ölkə arasındakı əlaqələrin bütün aspektinə toxunub.

Ermənistanın indiki məqamda Gürcüstanla əməkdaşlığa bu şəkildə meyl etməsi çox maraqlıdır. İkincisi isə Paşinyanın iki ölkə arasındakı münasibətlərdə təhlükəsizlik məsələləri ilə bağlı maraqların üst-üstə düşdüyünü deməsi heç bir məntiqə sığmır. Çünki Gürcüstan da ərazi bütövlüyü məsələsindən əziyyət çəkir. Ermənistan Rusiyanın qorxusundan heç vaxt Gürcüstana ərazi bütövlüyü ilə bağlı məsələdə açıq dəstək verməyib. Bundan əlavə, Paşinyan Gürcüstanın daxilində olan və ermənilərin kompakt yaşadığı Cavaxetiyada separatçı meyllərin inkişafına ciddi dəstək verir. Belə olan təqdirdə hansı ümumi təhlükəsizlik maraqlarından danışmaq olar?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu davranışlarının əsaslı səbəbləri var: "Ermənistan özünə nəfəsliyi artırmaq üçün yeni konfiqurasiya axtarışındadır. Onun çox böyük nəfəsliyi olan İranla bağlı vəziyyət gərgindir. Xüsusilə də sanksiyalar girdabında çabalayan və koronovirusun geniş yayıldığı ölkə kimi İranın təcridi dərinləşir. Bu da Ermənistanı vadar edir ki, yeni çıxış yolları axtarsın. Bunu da Gürcüstanla mehriban münasibətlərin qurulmasında görürlər. Digər qonşularından fərqli olaraq, Ermənistanın bu ölkə ilə diplomatik münasibətləri var. İki ölkə arasında bir sıra anlaşma imzalansa da, ikitərəfli münasibətlər birmənalı deyil. Xüsusilə də təhlükəsizlik məsələsinə baxışda ölkələr arasında kəskin fərq var. Ermənistan Rusiya ilə isti münasibətlərə sahibdir və Avrasiya İqtisadi Birliyinin üzvüdür. Ermənistan digər qonşuları olan Azərbaycan və Türkiyə ilə düşmən münasibətlərindədir. Gürcüstan isə Rusiya ilə ikitərfli münasibətlərə sahib deyil, üstəlik, Rusiyaya 2014-cü ildə tətbiq edilən sanksiyaya qoşulub. Ermənistandan fərqli olaraq, Gürcüstan həm Azərbaycan, həm də Türkiyə ilə dost və qonşuluq münasibətləri qurub. Bununla yanaşı, Ermənistan Gürcüstana qarşı açıq ərazi iddiası ilə çıxış edir.

Gürcüstanda sayı 100 minlərlə ölçülən erməni yaşayır. Onlar əsasən Ermənistanla sərhədə yaxın ərazidə - Samtsxe-Cavaxeti bölgəsində cəmləşiblər. Ermənistan uzun müddətdir Cavaxetiyada separatizmi alovlandırır.

Erməni ekspertlər isə qətiyyən məsələnin bu tərəfi haqqında danışmırlar. Onlar Gürcüstanın Ermənistana qarşı ehtiyatlı mövqe tutmasını yalnız xarici təsirlə izah etməyə çalışırlar. Bu da özlüyündə Gürcüstan üçün təhlükəli məqamdır. Çünki ermənilər arxadan qəfil zərbə endirə bilərlər. Çox güman ki, çıxılmaz vəziyyətə düşmüş İrəvan bu addımı atacaq.

Bunlardan aydın olur ki, Ermənistanla Gürcüstan arasında geosiyasi və sosial-mədəni və xüsusilə də təhlükəsizliyə baxış mövzusunda uçurum meydana gəlib. Rəsmi Tiflis Avrasiya İttifaqına üzvlüyün iki ölkəni bir-birindən daha da uzaqlaşdıracağı barədə xəbərdarlıq edib. Ekspertlərin rəyinə görə, bu, regionda Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlığının güclənməsinə səbəb olub. Bütün bunlar sübut edir ki, Ermənistan-Gürcüstan münasibətlərində sərinlik mövcuddur.

Bundan başqa, ermənilər region ölkələri arasında ixtilaf salmaq yolunu davam etdirirlər. Onlar gah Qərbi, gah da Rusiyanı ittiham edirlər. Hiss olunur ki, Ermənistan tədricən regionun geosiyasi mənzərəsində qara ləkəyə çevrilir. O, qeyri-müəyyənlik və təhlükə faktoru olaraq qalır. Bu baxımdan da Ermənistanla Gürcüstanın heç bir ortaq təhlükəsizlik marağından danışmağa dəyməz".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

**Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində xalqımız böyük faciələr yaşayıb. Dağlıq Qarabağda ermənilər tərəfindən həyata keçirilən ilk işğal prosesindən danışarkən Kərkicahanın işğalını xüsusi qeyd etməliyik. Ermənilər Dağlıq Qarabağın qədim yaşayış məskəni olan və tarixən Azərbaycan türklərinin yaşadığı Kərkicahanı işğal edərək əhalisinə divan tutmaqla böyük tarixi cinayətlərə yol veriblər.**

## V yazı

Tarixçilər qeyd edirlər ki, ermənilər tərəfindən 1989-cu ildən başlayaraq Xankəndidən azərbaycanlı əhalisi deportasiya olunmağa başlayır. Heç bir səbəb göstərməyən ermənilər öz havadarlarının köməyilə bu prosesi həyata keçirirdilər. Təbii ki, bu prosesin baş verməsində keçmiş SSRİ rəhbərliyinin razılığı vardı. Tarixçilərin verdiyi bilgiyə görə, ermənilərin silahlı hücumlarına, göstərdikləri təzyiqlərə baxmayaraq, bir neçə min nəfər əhali isə işğal gününədək Kərkicahanda qalır. Öz doğma yurdlarında ermənilər tərəfindən müxtəlif zorakılıqlara, təqiblərə məruz qalan kərkicahanlılar çox böyük problemlər yaşayırlar.

Rəsmi mənbələrdə bildirilir ki, Kərkicahan əhalisi gizlincə Malıbəyli tərəfdən Ağdama, Şuşaya və Bakıya gələrək ermənilərin onların başlarına gətirdiyi müsibətləri keçmiş rəhbərliyə çatdırırdılar. Həmin dövrdə ermənilər Kərkicahan camaatını qazsız, susuz, işıqsız qoymuşdular və digər ərazilərlə rabitə yox idi, onlara keçmiş Azərbaycan rəhbərliyindən isə heç bir dəstək verilmirdi. Keçmiş Azərbaycan rəhbərliyindən heç bir dəstək almayan həmin insanların bir çoxu erməni pusqusuna düşür və işgəncə ilə öldürülürdü. Buna isə reaksiya verən tapılmırdı. Ermənilər azərbaycanlılara işgəncələr verir, onları fiziki, mənəvi, psixoloji cəhətdən incidirdilər.

Xankəndi sakini olan Leyla Məmmədova adlı bir şəxsin mətbuata dediklərindən: "1990-cı ildə mən kolxozda işləyirdim və Kətükdən Xankəndiyə gəlirdim. Yolum Quşçulardakı erməni pusqusundan keçirdi. Orada erməni əsgərləri bir qızın başını kəsmiş, digərini isə asmışdılar". Bütün bunlar açıq şəkildə baş verirdi, amma erməni daşnaklarının qanunsuz əməlləri, cinayətləri cəzasız qalırdı.

Məlumatlara görə, 1991-ci il dekabrın 29-u, gecə saat 22:00-da ermənilər artıq öz mövqelərini tutur. Saat 23:30-da hücum əmri verilir və savaş başlayır. Əsas hücumlar Kərkicahan tərəfə idi. Azərbaycanlıların Kərkicahandan çıxması üçün 3 yol var idi: Kərkicahandan birbaşa Şuşaya, Ərminavan ərazisi, Bakı-Xankəndi-İrəvan magistral yolu.

Tarixçilər qeyd edirlər ki, Kərkicahan işğal olunmuşdu, hərbçilərin bir çoxu orada idi və keçmək mümkün olmadı. İşğalların bir çoxunu həyata keçirən 366-cı motoatıcı alay Kərkicahanla Xankəndinin arasında yerləşirdi. Ərminavandakı binalar isə partladılmış və yolun üstünə düşmüşdü. Yol bağlanmışdı. Təkcə yol Bakı-Xankəndi-İrəvan magistralı idi. Bəzi məlumatlara görə, həmin magistral tərəfdən Ağdam və Xocalı əhalisi köməyə gəlirdilər. Yaşayış məntəqəsi işğal olunan zaman əsir düşən insanların gözləri, başları və digər yerləri kəsilir. Meyitlər yandırılır və ya itə yem edilir. İnsanların dərisi soyulur və s. Atışma səhərə qədər davam edir və erməni qüvvələri qalib gəlir. İşğal qurtardıqdan sonra isə yaşayış məntəqəsinin bir hissəsi və meşə əraziləri yandırılır. Şuşa elə bir yerdə idi ki, Xankəndi ovuc içi kimi görünürdü. Kərkicahan Xankəndiyə nisbətən daha da yaxın idi. Ermənilərin Kərkicahanı işğal etməsi nəticəsində 34 nəfər şəhid olub, 150 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. İki orta məktəb, bir uşaq bağçası, bir kitabxana, bir klub, bir ATS, on dükan, bir tibb ambulatoriyası, müxtəlif istehsal sahələrinə aid olan beş sex və digər məişət-iaşə obyektləri dağıdılıb.

Tarixçilərin bildirdiyinə görə, 1960-cı illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin millətçi erməni rəhbər orqanları qəsəbənin adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxararaq özünü Xankəndi şəhərinə birləşdirmişdilər. Azərbaycanlılar yaşayan bu qədim kəndə şəhər tipli qəsəbə statusu verilmişdi. Xankəndi şəhərini vaxtilə Qarabağ xanı Pənahəli xanın oğlu Mehdiqulu xan Kərkicahan yaxınlığında salmışdı. Oykonim mənbələrdə Kərkican və ya Kirkican kimi qeydə alınıb. Əsli Kərkican olan bu etnotoponim kərki tayfa adından və yer, məkan bildirən can topoformantından ibarət olub, "kərki tayfasının məskəni" mənasındadır.

Qeyd etdiyimiz kimi, Kərkicahan uğrunda döyüşlərdə 150-dən çox azərbaycanlı, 40 qadın və 110 kişi şəhid olub. Həmin vaxt kəndin müdafiəsi yerli əhali, polis və yenicə yaranmış Azərbaycan Ordusunun bir qrup əsgəri tərəfindən təşkil olunmuşdu. Lakin bu müdafiə qüvvələri Xankəndi istiqamətindən qəsəbəyə doğru hücuma keçən erməni silahlılarının istifadəsində hərbi texnika və ağır silahlar olduğundan, son nəticədə geri çəkilməyə məcbur oldular. Bununla belə, pis silahlanmış Azərbaycan əsgərləri bir müddət erməni silahlılarının hücumlarının qarşısını aldılar və bunun hesabına dinc əhali qəsəbədən çıxa bildi. Kərkicahan kəndi uğrunda gedən döyüşlər haqqında rejissor Ceyhun Mirzəyev tərəfindən "Fəryad" bədii filmi çəkilib.

SSRİ dövründə Kərkicahanda 1922, 1939, 1959, 1978 və 1990-cı illərdə zavod və fabriklər açılır. 1930-cu ildə Qarabağa yenidən erməni əhali yerləşdirilir və onların xeyli hissəsi də Kərkicahana gətirilir.

İkinci Dünya Müharibəsində kərkicahanlılar da yaxından iştirak ediblər. Xankəndi Hərbi Komissarlığının arxivlərində də göstərilir ki, Kərkicahan ərazisindən ümumi 161 kişi və 2 qadın savaşda iştirak edib. Onlardan yalnız bir nəfər məşhəti türkü olub, qalanları isə azərbaycanlı idi. 79 nəfər həlak olub. Onların 20-si itkin düşüb. 64-ü isə əlillik dərəcəsi alıb. Bundan da göründüyü kimi, ermənilər həmin dövrdə Kərkicahanda yaşamayıblar.

Kərkicahan sakinləri repressiyadan da ciddi əziyyət çəkiblər. Belə ki, SSRİ dövründə repressiya qurbanlarının sayı gizlədilirdi. Lakin SSRİ dağıldıqdan sonra bir neçə azərbaycanlı tədqiqatçı Moskvaya üz tutub və arxiv sənədlərini yoxlayıb. Arxivlərdə SSRİ-nin hər bir kəndindən neçə nəfərin repressiya qurbanı olması barədə məlumatlar var. Həmçinin, Kərkicahandan. Ümumiyyətlə, biz bu repressiyaları araşdırdıqda görə bilərik ki, repressiya olunan şəxslərin bir çoxu erməni satqınlığından zərər görüb və ya ermənilərə müqavimət göstərən zaman üstünə damğa vurulub.

1930-cu illərdə Ermənistandan Qarabağa axışan ermənilər azərbaycanlıların evlərinə göz dikir, evləri, tarixi yerləri dağıdırdılar. Azərbaycanlılar buna qarşı çıxan zaman ermənilər hay-küy salaraq rəhbərliyə məktublar göndərirdilər: "Türklər bizi qırır!". Buna görə də günahsız adamları qurban edirdilər. Həmçinin, Stalin rejimi hər zaman ermənilərin dayağı idi. 1920 və 1932-ci illərin repressiyası zamanı Kərkicahan itki verməyib. 1921-ci ildə yalnız bir nəfər - Əli Allahyar oğlu Ağamalıyev qurban olub. Az.ÇK-nın Kollegiya iclasının materiallarına əsasən (materiallar Moskvadadır), 1923-cü ildə haqsız yerə öldürülən 89 nəfərin 21-i Dağlıq Qarabağdan, onların da 8-i Xankəndi və ətraf yaşayış məntəqələrindəndir. 1931-ci ildə Kərkicahanın baş axundu Sahibi Qəhrəman oğlu Hacı Qulu repressiya qurbanı olub. 1935-ci ildə isə Kərkicahandan bir ailənin üzvü olan 3 nəfər repressiyaya məruz qalıb: İsmayılov Çələbi Məmməd Qərib oğlu, qaynı Çopur Kərim və kiçik qardaşı İsmayılov Matan Murtuz oğlu. Sənədlərdə qeyd olunub ki, onlar şəhər ərazisində panika və iğtişaşlar yaratmaqda suçlanıblar. Ən çox itki 1938-ci ildə baş verib. Həmin il Kərkicahandan 9 nəfər şəxs, ümumi Xankəndi və tərkibindəki yaşayış məntəqələrindən isə 23 nəfər repressiya qurbanı olub. Əlbəttə, bütün bu işlərdə də soyumuzu kəsməyə həris olan erməni daşnaklarının "xidmətləri" olub.

1960-cı və 1991-ci illərdə Kərkicahanda məktəblər açılır. Bu dövrə qədər isə mədrəsə və xan qızı Natəvanın evində məktəb fəaliyyət göstərirdi. 1950-1970-ci illərdə yanğınsöndürmə idarəsi, ATS, bağça, klub, su və qaz idarələri, stadion, 2 park, 2 hotel, pansionat, SES və bir çox idarə yaradılır. Kərkicahan həm də Azərbaycanın əsas kurort yerlərindən biri idi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistan baş naziri Nikol Paşinyanın Gürcüstan səfəri İrəvan üçün fiasko ilə nəticələnməkdədir. Belə görünür ki, elə bu səfərdən sonra Ermənistanın iqtisadi blokadasına qoşulanlardan biri də Gürcüstan olacaq. Düzdür, Gürcüstan bunu Ermənistanın ona ərazi iddiası olması ilə bağlı etmir.**

# Gürcüstan da Ermənistanın iqtisadi təcridinə qoşulur



Çində 2019-cu ilin sonlarında başlayan koronavirus xəstəliyinin artıq Qafqaza da çatması Tiflisi bu addımı atmağa vadar edir. İranın ardınca Ermənistanın Gürcüstan sərhədlərinin də bağlanması bu ölkə üçün fəlakət kimi qiymətləndirilir.

Məsələ burasındadır ki, Ermənistan onsuz da regionda təcrid vəziyyətinə düşmüşdü. Bu ölkənin xariclə əlaqəsi İran və Gürcüstan üzərindən həyata keçirilirdi. Amma artıq İranla sərhədlər bir neçə gündür bağlıdır. Bu, iki ölkə arasında iqtisadi münasibətlərə də təsir edir. Belə ki, İranla sərhədlərin bağlanması Ermənistan bazarına tədricən ağır zərbə vurur. İranla Ermənistan arasında həm ticarət, həm də turizm mübadiləsi xeyli dərəcədə zəifləyib. Bu da zəif və kövrək olan Ermənistan iqtisadiyyatına ciddi şəkildə mənfi istiqamətdə təsir edir. Xatırladaq ki, martın 1-də Ermənistanda koronavirusa ilk təsdiqlənmiş yoluxma faktı qeydə alınıb. Virus İrandan gəlmiş 29 yaşlı Ermənistan vətəndaşında aşkarlanıb. Hazırda koronavirus səbəbindən Ermənistanda 50-yə yaxın şəxs təcrid olunub.

Erməni biznesmen Vaqram Mirakyan isə qeyd edir ki, artıq yaxın günlərdə Ermənistan iqtisadiyyatı Gürcüstan hökumətindən də böyük zərbə ala bilər. Onun sözlərinə görə, Gürcüstan Ermənistan şirkətləri və yükdaşıyıcıları tərəfindən daşınan İranın tərəvəz və meyvələrinin ölkəyə girişinə qadağa qoyub:"Çoxlu sayda erməni şirkəti və fiziki şəxslər İrandan aldıqları meyvə və tərəvəzləri Ermənistan gömrüyündə qeydiyyatdan keçirir və Rusiya bazarında satır. Biz İran və Rusiya arasında vasitəçiyik. Biz pul qazanırıq, vergi isə Ermənistana qalır. Amma artıq vəziyyət dəyişib". İndi Gürcüstan erməni yük maşınları üçün keçidi bağlayıb. Hazırda İranın kivi, alma, pomidor və digər kənd təsərrüfatı məhsulları olan xeyli sayda yük maşını Gürcüstan-Ermənistan sərhədində dayanıb. Vaqram Mirakyan bu xüsusda bildirib: "Təhlükə ondan ibarətdir ki, məhsul Ermənistanda qalsa, yerli bazarda çürüyəcək, çünki ölkədə bu qədər böyük istehlak yoxdur. Nəticədə qiymətlər fəlakətli şəkildə enəcək ki, bu da sektordakı bütün müəssisələrə, eləcə də yerli alma və ya tərəvəz satan qurumlara təsir edəcək. Şayiələr gəzir ki, Gürcüstan istənilən yük maşınının Ermənistana giriş-çıxışını qadağan etmək istəyir. Bütün hallarda diplomatik müdaxilə vacibdir". Qeyd edək ki, Gürcüstan hökuməti koronavirus təhlükəsi səbəbindən Ermənistanla sərhədləri bağlayıb. Ermənistanın "Qraparak" nəşri yazır ki, Gürcüstanla sərhədlər uzun müddətə bağlı qala bilər. Çünki Ermənistan hakimiyyəti koronavirusla mübarizəyə hazır deyil və Tiflis də bunu nəzərə alır.

Qəzet yazır ki, söhbət təkcə İrandan gələnlər üçün qrip peyvəndi, maska çatışmazlığı, karantinə alınmamaqdan getmir, hətta ölkədə operativ qərargah da yaradılmayıb:"Bu, iqtisadiyyatdan müdafiəyə qədər yalnız sağlamlıq problemi deyil, məsələ ilk növbədə ordu ilə əlaqəlidir. Əsgərlərin qohumlarına ziyarət qadağası qoyulub, ancaq koronavirus hava-damcı yolu ilə ötürülən virusdur. Zabit heyəti və xidmət işçilərini qorumaq üçün nə edilir? Virus orduda yayılsa, necə olacaq? Bütün normal ölkələrdə əməliyyat qərargahları yaradılıb və ciddi şəkildə işlənmiş bir plan var. Ermənistanda bu yoxdur. Belə vəziyyətdə Gürcüstanın sərhədləri bağlaması normal haldır". Ermənistanın "Çiçəklənən Ermənistan" partiyasının lideri Haqik Tsarukyan hökumətin koronavirusun yayılmasına qarşı gördüyü tədbirlərin yararsız və səmərəsiz olduğunu bəyan edib. O deyib ki, hakimiyyət vaxtında tövsiyələrə məhəl qoymadı, bu gün isə özünə haqq qazandırmağa çalışır. O əlavə edib ki, apteklərdə qoruyucu maska və dərman tapmaq mümkün deyil:"Vəziyyət təhlükəlidir. Ermənistan hökumətinin iqtisadi proqramı ölkənin inkişafını təmin etmək qabiliyyətinə malik deyil. Mən Harvardda təhsil almamışam, ancaq biznes sahəsində böyük təcrübəm var. Ermənistan iqtisadiyyatını şifahi, ağızdan deyil, praktiki olaraq bilirəm. Bizə iqtisadiyyatın dirçəlməsi, kənd təsərrüfatının yaxşılaşdırılması, kiçik və orta biznesin inkişafı lazımdır. Amma bunlar yoxdur. Bu durumda İran və Gürcüstanla sərhədlərin bağlanması vəziyyəti daha da pisləşdirir".

**Tsarukyan deyib ki, hökumət iqtisadi inqilab elan edəndə borc alanların sayı 1,5 milyon nəfər idisə, indi onların sayı artıq 1,6 milyonu keçib. Partiya sədri vurğulayıb ki, Ermənistanın iqtisadi inkişafı adi vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə təsir etmir. Belə vəziyyətdə Ermənistanın təcrid durumunun genişlənməsi isə sadə vətəndaşlara, iş adamlarına, idxal və ixracatla məşğul olanlara, Tsarukyanın fikrincə, əhəmiyyətli dərəcədə pis təsir edəcək. O, vəziyyətdən çıxış yolu olmadığını da bildirib və bu durumda ölkədə sosial narazalığın daha da dərinləşəcəyini vurğulayıb.**

***Nahid SALAYEV***

# Yaxın günlərdə dollar-manat nisbətində maraqlı dəyişikliklər ola bilər

## ABŞ uçot dərəcəsini aşağı saldı, neft isə ucuzlaşır...

**Dünya üçün hələ də ciddi təhdid mənbəyi olaraq qalmaqda davam edən koronavirus artıq beynəlxalq maliyyə bazarlarına da təsir edir. Xüsusən də qlobal ticarətin həcminin azalması fonunda indi biri sıra ölkələr yenidən milli valyutalarını ucuzlaşdırmaqla ixrac qabiliyyətini qorumağa çalışır.**

Təbii ki, bu vəziyyət Azərbaycana, onun milli valyutasına da təsirsiz ötüşmür. Belə görünür ki, baş verənlər bu il manatın güclənməsi istiqamətində təsirləri bir qədər də artıracaq. Bura ilk növbədə manatın dollara nisbətdə güclənməsi daxildir.

Yeri gəlmişkən qeyd edək ki, ABŞ-ın Federal Ehtiyat Sistemi uçot dərəcəsinə yenidən baxıb. Məlumata görə, Federal Ehtiyat Sistemi uçot dərəcəsini 0,5% bəndi azaldıb və 1-1,25% səviyyəsində saxlayıb. Məsələ ilə bağlı qurumun yaydığı məlumatda bildirilir: "ABŞ iqtisadiyyatı hələ də güclüdür. Lakin koronavirus iqtisadi fəallıq üçün yeni risqlərin artmasına zəmin yaradır. Federal Ehtiyat Sistemi məhz bu səbəbdən uçot dərəcəsinin 0,5% bəndi aşağı salınmasına qərar verib". Qeyd edək ki, Federal Ehtiyat Sistemi bundan əvvəl uçot dərəcəsinə cari il yanvarın sonunda baxmış və sabit saxlamışdı. Amma bu dəfə fərqli addım atılıb. Özü də Federal Ehtiyat Sistemi, gözləntilərin əksinə olaraq, uçot dərəcəsini 0,25% səviyyəsində yox, daha çox, yeni 0,5% bəndi azaldıb. Bu isə dolların artıq dünya birjalarında əhəmiyyətli dərəcədə ucuzlaşması ilə müşahidə olunur. Belə vəziyyətdə Mərkəzi Bankın müdaxiləsi olmasa, dollar Azərbaycanda artıq yaxın günlər ərzində xeyli dəyərdən düşə bilər.

Ümumiyyətlə, cari il ərzində dolların Azərbaycanda ucuzlaşması qaçılmaz sayılır. Əsas səbəblərdən biri ölkədə valyuta ehtiyatlarının sürətli artımıdır. Məsələn, elə bu günlərdə Mərkəzi Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi açıqlanıb. Baş bankın valyuta ehtiyatları martın 1-nə 6 milyard 400,9 milyon dollar olub. Bu göstərici ötən ayın eyni dövrü ilə müqayisədə 60,1 milyon dollar çoxdur. Dövlət Neft Fondunun aktivləri də ötən il xeyli artıb. Yəni 2018-ci ilin sonunda ehtiyatlar 38 milyard 515,2 milyon dollar idisə, ötən il bu göstərici 12,48 faiz artaraq 43 milyard 323,3 milyon dollara bərabər olub. Aktivlərin artımı fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olub. Bunlar o deməkdir ki, valyuta ehtiyatlarında böyük artım və real həcm dolların və digər xarici valyutaların idarə olunmasına münbit şərait yaradır. Məhz bu fonda dolların məzənnəsinin indiki həddə saxlanması zərurəti də aradan qalxır. Çünki Azərbaycanı hansısa ciddi valyuta çatışmazılığı və təhdidi gözləmir.

Digər tərəfdən, cari ildə ölkənin valyuta gəlirləri də xərclənəndən daha çox olacaq. Qeyri-neft sektoru, turizm, nəqliyyat daşımaları, aqrar ixrac və sair valyuta gəlirlərini xeyli artırır. Enerji məhsullarının ixracı da, hələ ki, Azərbaycanın lehinədir. Xüsusən də neftlə bağlı. Ümumiyyətlə, Azərbaycan hər zaman neftin proqnoz qiymətini müəyyənləşdirən zaman konservativ yanaşma tətbiq edib. Hökumət beynəlxalq təşkilatların nefti proqnozlaşdıran qiymətindən də aşağı qiymət götürərək, həm Dövlət Neft Fondunun, həm də dövlət büdcəsinin gəlirlərini qiymətləndirir. Əvvəlki illərin təcrübəsi göstərir ki, Azərbaycan hökumətinin konservativ yanaşması ölkənin ciddi maliyyə itkilərindən yayınmasına imkan verib. 2020-ci il üçün neftin orta illik qiyməti 55 dollardan götürülüb. Yanvar ayında Azərbaycanın ixrac etdiyi neftin orta qiyməti 62-63 dollar, fevralda 55-56 dollar səviyyəsində olub. Geridə qalan iki ay ərzində ixrac edilən neftin orta qiyməti 59-60 dollar həddində qərarlaşıb. Deməli, yanvar və fevralda Azərbaycanın ixrac etdiyi neftin orta qiyməti proqnoz olunan qiymətdən yüksək olub. Buna görə də həm Dövlət Neft Fondunun gəlirlərində, həm də dövlət büdcəsinin gəlirlərində proqnoz özünü doğrultdub, hər hansı problem yaranmayıb.

Qeyd edək ki, OPEC+ ölkələri də bazardakı payını saxlamaq üçün neftin qiymətinin, ən azından, 60 dollar ətrafında olmasını məqbul hesab edir və bu istiqamətdə fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd edək ki, hasilatın pay bölgüsünə uyğun olaraq Azərbaycanda da neft hasilatının artımı hələlik proqnozlaşdırılmır. Azərbaycan mövcud neft hasilatını qoruyub saxlamağa çalışan ölkələrdən biridir və bu istiqamətdə OPEC+ ölkələri ilə sıx əməkdaşlıq edir. Neft ixracatçılarının birgə səyi ilə qiymətlərin indiki həddə davam etməsi bu sahədə Azərbaycanın gəlirlərinin proqnoza uyğun olacağını göstərir. Belə qiymət Azərbaycana daxil olan valyutanın da həcminin əhəmiyyətli dərəcədə artımı deməkdir. Artan valyuta da, öz növbəsində, manat üzərində təzyiqin daha da artmasına rəvac verir. Başqa bir məsələ ölkədən xaricə gedən tursitlərlə bağlıdır.




**Elə koronavirus təhdidi üzündən turistik səfər üçün Azərbaycandan xaricə gedənlər azalır. Bu isə avtomatik olaraq dollar və avro tələbini də azaldıb. İdxal məhsullarının həcminin azalması da prosesə təsirsiz ötüşmür. Təbii ki, belə vəziyyətdə ölkəyə daxil olan dolların həcmi ölkədən çıxan həcmdən xeyli çoxdur. Məhz bu vəziyyət dolları manat qarşısında xeyli zəiflədir. Eləcə də dünya maliyyə bazarlarında baş verənlər, xüsusən də dolların uçot dərəcəsinin azalması kimi faktorlar da bu prosesə ciddi təsir edir.**

***Ramil QULİYEV***

# Son 15 ildə Azərbaycan səhiyyəsində görülən işlər koronavirus kimi təhlükənin qarşısını kəsməyə necə imkan verəcək...

***Nəsib Quliyev:** "Ölkəmizdə formalaşdırılan səhiyyə infrastrukturu imkan verir ki, biz ən qorxulu xəstəliklərdən belə respublika əhalisini, vətəndaşlarımızı qoruya bilək"*

**Bu gün bütün dünya ölkələri kimi, Azərbaycan da koronavirusa qarşı ciddi mübarizə aparır. Bir sıra dövlətlərdən fərqli olaraq, ölkəmizdə bu virusdan itkisiz çıxmaq üçün daha mütəşəkkil işlər görülür. Əlbəttə, burada Azərbaycanda yaradılan müasir səhiyyə infrastrukturunun da rolunu qeyd etməliyik.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də qeyd edib ki, Azərbaycan müasir səhiyyə infrastrukturuna malikdir

Azərbaycan Prezidentinin Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirakı bir daha göstərir ki, ölkəmizdə müasir səhiyyə infrastrukturu formalaşdırılıb. Eyni zamanda, Azərbaycanda səhiyyənin maddi-texniki bazası ən yüksək səviyyədə qurulur, paytaxt Bakı və bölgələrdə tibb müəssisələri müasir standartlara cavab verir, tibbi avadanlıq dünyanın aparıcı xəstəxanalarında olan avadanlıqlardan fərqlənmir. Son 16 ildə Azərbaycanın ancaq bölgələrində 22 yeni xəstəxana, 15 diaqnostika-müalicə mərkəzi inşa edilib, 28 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub. Beş xəstəxananın tikintisi isə davam edir. Bölgələrdə 70 müasir tibb ocağı istifadəyə verilib. Son 16 ildə Azərbaycanda 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub. Azərbaycanda əhalinin sağlamlığının qorunması istiqamətində məqsədyönlü siyasət həyata keçirilir. Son illər müayinədən keçən vətəndaşların sayı 5 milyona çatıb. Azərbaycanda səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi gözlənilməz, fors-major hadisələri də nəzərə alır.

K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, professor Nəsib Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda formalaşdırılan yeni səhiyyə infrastrukturu koronavirus təhlükəsinin qarşısını almaqda böyük imkanlara malikdir. N.Quliyevin sözlərinə görə, ölkəmizin müasir səhiyyə infrastrukturu imkan verir ki, biz bu virusdan itkisiz çıxaq. "Doğrudan da keçən 15 il ərzində Azərbaycan səhiyyəsində inqilabi dəyişikliklər baş verib. Təsəvvür edin ki, qeyd edilən müddətdə 650-dən artıq tibb müəssisəsi ya yenidən tikilib, ya da tamamilə ən müasir avadanlıqlarla təchiz olunmaqla yenidən qurulub. Bu tibb müəssisələrinin də əksəriyyətinin açılışında Prezident İlham Əliyev iştirak edib. Mən bəzən tikilən tibb müəssisələrini ilin həftələrinə bölürəm və hər həftəyə bir tibb müəssisəsi düşür. Bir ildə orta hesabla 50 həftə var. 13 ildə 50 həftəni hesablasaq, bu 650 həftə edir. Dünyada ikinci belə bir ölkə tapa bilməzsiniz ki, səhiyyəsində bu qədər sürətlə işlər görülsün, səhiyyə infrastrukturu bu dərəcədə yenilənsin. Həm tibb müəssisələri inşa olunub, həm də onlar ən müasir avadanlıqlarla təchiz olunub. İkinci məsələ, koronavirusla bağlı dünyanın bir çox ölkəsində əsas ehtiyac olunan məsələ erkən diaqnostika ilə bağlıdır. Yəni vaxtında xəstəlik araşdırılıb diaqnoz qoyulmayıb. Biz də isə bu sahədə də ciddi inkişaf var. Taun Əleyhinə Stansiya (Taun Əleyhinə Dispanser) köhnə yerindən köçürüldü və 8-ci kilometr qəsəbəsində ona müasir standartlara cavab verən gözəl bir bina tikildi. Hazırda dispanser orada fəaliyyət göstərir. Dispanser ABŞ-ın xəstəliklərə qarşı nəzarət təşkilatından, eləcə də Avropa ölkələrindən olan aparıcı mütəxəssislərin iştirakı ilə təchiz və təmin olundu. Bu gün o dispanserdə elə avadanlıqlar var ki, bizi əhatə edən ölkələrin çoxunda heç o yoxdur. Ölkəmizdə Mərkəzi referes laboratoriyanın mövcud olması və ən müasir avadanlıqlarla təmin edilməsi bizə imkan verir ki, zamanında koronavirusun diaqnozunu qoyaq və müalicəsini həyata keçirə bilək. Həmçinin də dərman, tibb ləvazimatları, avadanlıq cəhətdən də heç bir çatışmazlığımız yoxdur. Yəni ölkəmizdə formalaşdırılan səhiyyə infrastrukturu imkan verir ki, biz ən qorxulu xəstəliklərdən belə respublika əhalisini, vətəndaşlarımızı qoruya bilək. Bir tərəfdən illərlə görülən hazırlığın nəticəsidir ki, heç bir problemlə üzləşmədən koronavirusa qarşı mübarizəmizi apara bilirik. Başqa ölkələrə baxsanız, hətta inkişaf etmiş ölkələrin bəziləri də özlərində lazımi infrastruktur olmadığı üçün başqa ölkələrdən kömək istəyirlər. Amma bizim səhiyyəmiz bu virusla mübarizədə heç bir dövlətdən kömək istəmədi. Çünki onun özü bu kimi xəstəliklərlə mübarizəyə hazır oldu. Gördünüz ki, qonşu İranda (düzdür, bu ölkəyə qarşı iqtisadi sanksiyalar tətbiq olunub və s.) koronavirusla mübarizə idarəetmədən çıxdı, bu mübarizə orada çox çətinliklə idarə olunur. Nəyə görə? Ona görə ki, bu virusun qarşısını almaq üçün tələb olunan avadanlıqlar, digər vasitələr yoxdur. Diqqət edin görün ki, əhatəmizdə olan ölkələr, eləcə də İran son 15 ildə neçə yüz tibb müəssisəsi tikib? Yəni bunlar hamısı onu göstərir ki, doğrudan da Prezidentimiz son 15 ildə görülən real işlərin nəticələrini vurğulayıb. Ona görə də biz bu xəstəliyə təşvişlə, həyəcanla yanaşmağa lüzum görmürük. Dövlət səviyyəsində Ümumdünya Səhiyyə Təşkilatının da tövsiyələri nəzərə alınmaqla bütün tədbirlər həyata keçirilməkdədir".



*"İllərlə görülən hazırlığın nəticəsidir ki, heç bir problemlə üzləşmədən koronavirusa qarşı mübarizəmizi apara bilirik"*

N.Quliyev qeyd etdi ki, orta və ali təhsil müəssisələrinin, o cümlədən də bağçaların müvəqqəti olaraq bağlanması alqışlanasıdır. Onun sözlərinə görə, bu qərarın xəstəliklə mübarizədə böyük əhəmiyyəti var. Müsahibimiz dedi ki, yoluxma kollektivdə, ictimai yerlərdə, təmas zamanı daha asanlıqla yayıla bilir. "Biz bunun qarşısını aldıq. Uşaqlar artıq evdə valideynlərinin yanındadır və onlar kütləvi yerlərə çıxmırlar. Hətta uşaqlara, şagirdlərə, tələbələrə tövsiyə edildi ki, kütləvi tədbirlərə, ekskursiyalara getməsinlər və s. Bunlar hamısı dövlət tərəfindən vətəndaşlarımızın, o cümlədən də uşaqlarımızın təhlükəsizliyinə, qorunmasına yönəlmiş tədbirlərdir".

Ölkəmizin bütün qurumlarının təhlükəli virusa qarşı mübarizədə tədbirlər gördüyünü, əlaqəli işlədiyini, KİV-in isə öz üzərinə düşən informasiya təminatını həyata keçirdiyini deyən N.Quliyev hesab edir ki, ölkəmiz bu problemlə mübarizədən qalib çıxacaq. "Ölkəmizdə bununla bağlı heç bir narahatlıq, nigarançılıq yoxdur. Çünki Azərbaycanda bu proseslər çox uğurla idarə olunur. Xüsusilə də Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyindən də müsahibə verdilər ki, Azərbaycanda Ümumdünya Səhiyyə Təşkilatının verdiyi bütün tövsiyələr nəzərə alınır, yerinə yetirilir. Dövlət, səhiyyə və digər qurumlar öz işini görüb, əsas iş isə vətəndaşların üzərinə düşür. Vətəndaşlar da onlara edilən tövsiyələri vaxtlı-vaxtında yerinə yetirməlidirlər. Dövlət mümkün olan hər şeyi edib. Prezident əlavə olaraq bu məsələyə ehtiyat üçün yenə 10 milyon manat vəsait ayırdı. Bizim bu virusla mübarizə üçün dərman preparatlarımız, avadanlıqlarımız, xəstəxanalarımız da var. Əminəm ki, görülən bu tədbirlər də müsbət nəticə verəcək, qısa müddətə, bir-iki aya bu problemə tam olaraq nöqtə qoymuş olacağıq" - deyə N.Quliyev vurğuladı.

***İradə SARIYEVA***

# Dünya ölkələrində koronavirusla mübarizə necə aparılır?..

**Çində ortaya çıxan COVİD-19 koronavirusu bütün dünyada sürətlə yayılmaqda davam edir. Baki-xeber.com xəbər verir ki, indiyə kimi 70-dən çox ölkədə koronavirus aşkarlanıb. Koronavirusdan ən çox təsirlənən ölkə isə İran, İtaliya və Cənubi Koreyadır.**

Polşada da koronavirusa ilk yoluxma halı qeydə alınıb. "Trend"in məlumatına görə, bu barədə ölkənin Səhiyyə naziri Lukaş Şumovski mətbuat konfransı zamanı bildirib.

O deyib ki, xəstə Polşaya Almaniyadan gəlib. Həmin şəxs barədə ətraflı məlumat verilməyib.

Qeyd edək ki, koronavirus hazırda 73 ölkədə yayılıb. Yoluxanların sayı 90 min nəfəri ötüb.

Çində koronavirus infeksiyası başlayandan sonra virus təxminən 150 dəfə dəyişib. Çinli alimlər müəyyən edib ki, bu müddət ərzində virus daha aqressiv iki yarımtipə bölünüb

## *Çinli alimlər: "Koronavirus təxminən 150 dəfə mutasiyaya uğrayıb"*




Virusların 70 faizi L yarımtipinə, 30 faizi S yarımtipinə aid olub.

Qeyd olunur ki, Uhan şəhərində virus təzə yayılarkən daha çox L yarımtipi qeydə alınıb. Alimlər qeyd edir ki, yanvar ayında L yarımtipinin yayılması tezliyi azalmağa başlayıb.

Müşahidələr nəticəsində məlum olub ki, L yarımtipi S yarımtipi ilə müqayisədə daha aqressivdir. İnsan müdaxiləsi hər iki yarımtipin daha geniş yayılmasının qarşısını alıb.

Almaniyada COVİD-19 virusuna yoluxanların sayı 240 nəfərə çatıb. Ən çox yoluxma halı Şimali Reyn-Vestfaliya federal torpağında qeydə alınıb.

Burada 111 yoluxma halı müəyyənləşdirilib. Bavariyada 44, Baden-Vürtemberq torpağında 44 yoluxma aşkar edilib.

Qeyd olunur ki, koronavirus, Saksoniya-Anhalt torpağı istisna olmaqla, Almaniyanın bütün federal torpaqlarında yayılıb.

İsraildə mindən çox məktəbli koronavirusla əlaqədar karantinə yerləşdirilib. Buna səbəb Brenner rayonundakı məktəbdə şagirdlərdən birinin koronavirusa yoluxması olub.

Qeyd olunur ki, həmin şagird virusa oyuncaq mağazasında İtaliyadan gəlmiş İsrail vətəndaşı ilə ünsiyyətdən sonra yoluxub.

Bu günədək İsraildə 15 nəfərdə koronavirus aşkar edilib.

İndiyədək İranın 31 vilayətinin 28 vilayətində yeni koronavirusa (COVİD-19) yoluxma halı təsdiqlənib. Bu, İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin hazırladığı infoqrafikada öz əksini tapıb.

İnfoqrafikaya əsasən, 2 336 nəfərin yeni virusa yoluxma halı və 77 nəfərin bu virus nəticəsində dünyasını dəyişməsi təsdiqlənib. İndiyədək 435 nəfər sağalıb.

Nazirlik 5 737 nəfərin yeni koronavirus analizi verdiyini bildirir.

İranda bütün icraiyyə qurumları və dövlət işçilərinin xarici ölkələrə səfərləri ləğv olunub. Bu, İranın vitse-prezidenti İshaq Cahangirinin əlaqədar qərarında öz əksini tapıb. Bu barədə vitse-prezidentin informasiya portalı məlumat verib.

Qərara əsasən, yeni koronavirusun yenidən İrana daxil olmasının qarşısını almaq məqsədilə dövlət işçiləri beynəlxalq konfrans və sərgilərdə iştirak edə bilməzlər.

Qərarda, sadəcə, İran Xarici İşlər Nazirliyi istisna olunub və digər istisna halları vitse-prezidentin təsdiqi ilə baş tuta bilər.

İranda yeni koronavirus (COVID 19) nəticəsində indiyədək 2922 nəfər yoluxub. Bunu İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin mətbuat xidmətinin müdiri Kiyanuş Cahanpur deyib. Bu barədə IRINN məlumat verib.

K.Cahanpurun sözlərinə görə, ötən sutka ərzində daha 586 nəfər bu virusa yoluxub: "Tehran vilayətində 253, Gilan vilayətində 35, Mazandaran vilayətində 9, Simnan vilayətində 8, Gülüstan vilayətində 9, Şərqi Azərbaycan vilayətində 9, Kürdüstan vilayətində 4, Kirmanşah vilayətində 15, İlam vilayətində 7, Lorestan vilayətində 5, Xuzistan vilayətində 27, Fars vilayətində 14, Zəncan vilayətində 6, Mərkəzi vilayətdə 8, Qəzvin vilayətində 25, Əlborz vilayətində 19, Qum vilayətində 101, Çahar-Mahal və Bəxtiyari vilayətində 1, Kirman vilayətində 14, Sistan və Bəluçestan vilayətində 8, Rəzəvi Xorasanı vilayətində 8, Şimali Xorasan vilayətində 1 nəfərin yeni koronavirusa yoluxması ötən sutka ərzində bəlli olub",- deyə o qeyd edib.

Cahanpur bildirib ki, ötən sutka ərzində 15 nəfər dünyasını dəyişib və İranda bu virus nəticəsində ölənlərin sayı 92-yə yüksəlib.

Nazirlik rəsmisi əlavə edib ki, sağalanların sayı isə 552 nəfərə yüksəlib.

Qeyd edək ki, İranın Səhiyyə Nazirliyinin rəsmisi ötən gün 2 336 nəfərin yeni koronavirusa yoluxduğunu, 77 nəfərin dünyasını dəyişdiyini, 435 nəfərin sağaldığını bildirmişdi.

Tailandda dövlət qulluqçularının xaricə səfərləri məhdudlaşdırılıb.

Bundan başqa, məmurlar koronavirusun daha çox yayıldığı ölkələrdən qayıdarkən 14 günlük icbari karantinə yerləşdirilməlidir.

Qərara əsasən, hökumətin daha təhlükəli hesab etdiyi ölkələrə xidməti səfərlər tamamilə dayandırılır.

Hazırda ən təhlükəli ölkələr sırasına Çin, Cənubi Koreya, Yaponiya, İran, İtaliya, Almaniya, Sinqapur, Fransa daxil edilib.

Qeyd edək ki, bu günədək Tailandda 43 nəfər koronavirusa yoluxub, onlardan 31 nəfəri sağalıb.

Tacikistanda koronavirusun yayılmasının qarşısının alınması məqsədilə məscidlər müvəqqəti bağlanıb. Bu barədə ölkənin Dini İşlər üzrə Komitəsi qərar verib.

Qeyd olunur ki, bu qərar preventiv xarakter daşıyır.

Koreya Respublikasında koronavirusa yoluxma hallarının sayı ötən gün ərzində 516 nəfər yüksələrək 5328-ə çatıb. Bu barədə ölkənin Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktikası Mərkəzindən bildiriblər.

Ölənlərin ümumi sayı 32-yə çatıb.

Mərkəz bildirir ki, yeni yoluxma hallarının 405-i Tequ şəhərində, 89-u isə Kensan-Pukto əyalətlərində baş verib. Cənubi Koreyanın paytaxtı Seulda bir, Pusan şəhərində isə üç yeni yoluxma hadisəsi qeydə alınıb. 41 nəfər tam sağalaraq xəstəxanalardan buraxılıb. Karantinə 28,4 min nəfər yerləşdirilib.

Son həftə Koreya Respublikasında yoluxma hadisələrinin sayının kəskin artması müşahidə olunur. Bununla əlaqədar olaraq ölkə hökuməti məktəblərdə tədrisi martın 23-nə qədər təxirə salıb.

***Baki-xeber.com***

№ 40 (4171) ■ Qiyməti: **40 qəpik**

# BAKI XƏBƏR

www.baki-xeber.com

5 MART 2020-ci il



# Ağrı hiss edən robot...

**Yaponiyanın Osako Universitetinin mühəndisləri "Affetto" robotunun təkmilləşdirilmiş versiyasını təqdim ediblər.**

Robot uşaq gülümsəyə, qaşqabağını tökə, ağlaya, gözlərini yuma bilirdi, indi isə o, ağrını hiss edir. "İctnews.az" bildirir ki, "Affetto" robotu üzərində işlərə 2011-ci ildə başlanılıb. Gülümsəyən "körpə" süni dəri ilə örtülmüş realistik baş skeletinə malikdir. Bu və ya digər emosiyanı ifadə etmək üçün müəyyən şəkildə öz formasını dəyişən 116 datçik quraşdırılıb. Robot uşağın yeni versiyası taktil datçikə elektrik boşalması tətbiq edildikdə fəallaşan "süni ağrı sistemi" ilə təchiz edilib. Alim düyməyə sıxan kimi buna cavab olaraq "Affetto" robotunun sifəti diksinməyə, qırışmağa başlayır. Aparıcı tədqiqatçının fikrincə, "ağrı datçikləri" nə vaxtsa maşınlara mərhəmət ifadə etməyə, başqasının dərdinə şərik olmağa imkan verəcək. "Biz Yaponiyada bütün cansız cisimlərin ürəyə sahib olmasına inanırıq, buna görə bu cəhətdən metal robot insandan heç nə ilə fərqlənmir: insan və əşyalar arasında daha az sərhəd var" - layihənin rəhbəri deyib.

## Aşiq olmaq insanı arıqladır

**Sevgiyə aid minlərcə şeir, mahnı, dastanlar yazılıb, filmlər çəkilib. Yenə də sevginin əsl formulunu hələlik tapan olmayıb.**



"Milli.Az" xəbər verir ki, aşiq olmaq arıqlamaq üçün daima motivasiya qaynağı olmuşdur və aşiq olan insanlar fiziki görünüşünə daha çox fikir verirlər. Mütəxəssislər aşiq olan hər 10 nəfərdən 8-nin arıqladığını müşahidə ediblər. İngiltərənin Birmingham Universitetinin araşdırması göstərib ki, aşiq olanlar 5 kilo arıqlayıblar. Araşdırmaya qatılan aşiq qadınların yüzdə 62 faizi, kişilərinsə yüzdə 50 faizi münasibətə başladıqdan sonra çəki itirdiklərini deyiblər.

Belə ki, sevgi hissi bədənimizin biologiyasını dəyişdirən hissdir. Aşiq olan zaman bədənimizdə ifraz olan melatonin, seratonin, adrenalin və oksitosin hormonları obezdən xərçəngə qədər bir çox xəstəliyə şəfa olur. Sevgi bədənimizdə melatonin hormonunu ifraz edərək, immun sistemimizi gücləndirən, hüceyrə yenilənməsini sürətləndirən, daha keyfiyyətli yuxu yatmağımıza, asan çəki atmağımıza səbəb olan duyğudur.

Aşiq olduğumuzda gözlərinizin və dərimizin parlaması ifraz olunan hormonlarla əlaqədardır. Unutmayaq ki, ifraz olunan hormonlardan seratoninin digər adı xoşbəxtlik hormonudur. İnsana xoşbəxtlik, canlılıq, yüksək düşünmə qabiliyyəti bəxş edir. Üstəlik, artıq enerji və az iştaha səbəb olaraq tez arıqlamağa kömək edir. Aşiq olan zaman ifraz olunan adrenalin hormonu orqanizmin sürətli çalışmasına və daha çox kalori yandırmasına kömək edir. Yəni, yediklərimizi daha tez həzm edib çəki atırıq.

## Elan

"Aqrolizinq" ASC-nin Şəki Regional İdarəsinə məxsus SR- 2035, SK-5 taxıl yığan kombaynının və YTO-CXH- 4 aqreqatının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Əliyev Hüseynşir Səfayıl oğlu adına, Bakı şəhəri, Abşeron rayonu, Məmmədli kəndində yerləşən 0.1901 ha torpaq sahəsinin reyestr nömrəsi 308013091872 olan, seriya MH №0556544 nömrəli olan çıxarışı itdiyi üçün etibarsız sayılır.

## "Nar" AzTU-nun ən yaxşı tələbələrini mükafatlandırdı

**Gənclərdə oxumaq həvəsini artırmaq və onlarda motivasiya yaratmaq məqsədilə "Nar" uğurlu layihələr həyata keçirməkdə davam edir. Azərbaycan Texniki Universitetinin (AzTU) 3 ən yaxşı nəticə göstərmiş tələbəsini baş ofisinə dəvət edən mobil operator tələbələri semestr boyu nümayiş etdirdikləri yüksək nəticələrə görə təbrik edib və onları dəyərli hədiyyələrlə mükafatlandırıb.**

AzTU-nun İnformasiya və Telekommunikasiya Texnologiyaları fakültəsinin qabaqcıl tələbələrinin "Nar" tərəfindən mükafatlandırılması 4 ildir davam edir və artıq ənənə halını alıb.

Görüş zamanı İnformasiya və Telekommunikasiya Texnologiyaları fakültəsinin dosenti Elçin Gözəlov tələbələrin yüksək nəticə əldə etmək üçün həvəsləndirilməsini və ixtisaslarına uyğun istiqamətdə fəaliyyət göstərən şirkətlə tanışlığını yüksək dəyərləndirib. Tələbələrə universitetin nəzdində yaradılan "Nar" GSM laboratoriyasının imkanlarından maksimum yararlanaraq mobil rabitənin əsaslarını öyrədildiyi, mobil operator tərəfindən rabitə təlimlərinin keçirildiyi və AzTU tələbələrinin "Nar"ın texniki heyətilə birgə təcrübə keçdiyi qeyd edilib.

Ölkədə təhsilin daha yüksək inkişafı, yerli kadrların yetişməsi, onların beynəlxalq rabitə bazarında seçilən peşəkarlardan birinə çevrilməsi məqsədilə "Nar" 2016-cı ildən etibarən Azərbaycan Texniki Universiteti ilə ikitərəfli razılaşma əsasında tərəfdaşlıq edir. Bu çərçivədə mütəmadi layihələr icra edən mobil operator universitetlə daha genişmiqyaslı layihələr həyata keçirmək niyyətindədir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Heç bir mənası qalmayan nəsnələrdən imtina edin. Ciddi yeniliklər sizdən yan keçirsə, hansısa məqamı məcburi olaraq saxlamağa çalışmayın. Yarımçıq qalan, tamamlanmamış təsir bağışlayan mövzunu bitirin.



**Buğa** - Telefonu söndürməyin, maraqlandığınız məlumatı internetdə arayın. Aramadığınız informasiyanı da tapa bilərsiniz. Qəfil stress, gözlənilməz reaksiyaya səbəb ola biləcək hadisələr baş verə bilər.



**Əkizlər** - İşlərdə və ya münasibətlərdə mühüm dönüşə səbəb ola biləcək spontan hadisələr yaşana bilər. Dəyişikliklərə hazır olun. Nə etməyinizdən asılı olmayaraq, diqqətli və sərvaxt davranın, nəzarəti itirməyin.



**Xərçəng** - Xüsusi ehtiyac olmadan təmir işləri aparmaq, evi nəzarətsiz qoymağa dəyməz. Sevdiyiniz insanların yanında olun. Valideynlərinizlə münasibətləri aydınlaşdırmağa çalışmayın, əks təqdirdə, səbəbsiz münaqişələr baş verə bilər.



**Şir** - Yeni resurslar və imkanlar arayanda ehtiyatlı olun. İlk baxışdan nəzərə çarpmayan mənəələr ciddi çətinliklər yarada bilər. Toplantı, müzakirə, sövdələşmə və danışıqlar üçün uğurlu gündür.



**Qız** - Ənənəvi davranış və iş ahənginizi poza biləcək qərarlar qəbul etməyin. Cəsarətli açıqlamalar, ekssentrik davranış və ya gözlənilməz qərar tərəfdaşınızın təəccübünə səbəb ola bilər.



**Tərəzi** - Həyatınızdakı rahatlıq və işinizdəki nizam qəfil müdaxilə, kənar təsir ilə pozula bilər. Çoxdan bəri hazırladığınız, uğura istiqamətlənmiş iş qəflətən pozula bilər. Bununla belə, dərhal məşğul olmağınız gərəkən məsələ də peyda olacaq.



**Əqrəb** - Bu gün iş çox olacaq. Gözlənilməz tapşırıqlar istisna deyil. Mühüm situasiyanın məzmunu ilə yanaşı, həmin məsələyə münasibət və yanaşma tərzi də dəyişə bilər. Planlar pozulur, vəziyyət məcrasından çıxır.



**Oxatan** - Səy göstərin, problemin çözümünü arayın. Sizi narahat edən, hisslərinizdə diskomfort yaradan insanla danışın. Sükan arxasında, yolda, nəqliyyatda ehtiyatlı olun. Dostlar və qohumlarla ünsiyyət üçün optimal vaxtdır.



**Oğlaq** - Təxminlənməsi çətin gündür. Əməlləriniz və fəaliyyətinizlə hazırlaşdığınız nəticəni əldə etməyə bilərsiniz. Buna rəğmən günün təmayülləri sizin üçün uğurludur. Səhvləri asanlıqla aradan qaldırmaq olar.



**Dolça** - Münaqişə, mübahisələr, çox baha başa gələ biləcək etiraf vaxtıdır. Sirr saxlamaq istədiyiniz hadisə barədə xəbərin yayılmasına imkan verməyin. Yaxın ətrafınızdakı insanlarla ünsiyyət sürprizlər vəd edir.



**Balıqlar** - Xoş təəssüratlar və müsbət emosiyalar vəd edən gündür. Planlaşdırılmamış hadisə, nəzərdə tutulmayan görüş baş tuta bilər. Səhər saatlarından etibarən yaşamın axarına hazır olun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Rusiyada it saxlayanlar vergi verəcəklər

**Rusiyada itlərə görə vergi tutulması planlaşdırılır.**



"Day.Az" xəbər verir ki, belə bir qərar Yakutsk vilayəti hakimiyyəti tərəfindən gündəmə gətilib. Yakutsk şəhər meri Sardana Avksentyeva bildirib ki, it sahiblərindən tutulan vergi və rüsumların isə sahibsiz itlərlə mübarizə tədbirlərinə yönəldilməsi nəzərdə tutulur. Belə ki, sahibsiz heyvanların karantinə salınması, peyvəndlənməsi, sterilizə və sairə tədbirlər müvafiq orqanlar üçün hər il külli miqdarda vəsait hesabına başa gəlir.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.